# DİNİMİ ÖYRƏNİRƏM



DİYANƏT İŞLƏRİ BAŞQANLIĞI NƏŞRLƏRİ

# DİNİMİ ÖYRƏNİRƏM

DİYANƏT İŞLƏRİ BAŞQANLIĞI NƏŞRLƏRİ

ANKARA
2008

# Ön söz

**Diyanət İşləri Başqanlığı**
**Nəşrləri: 625**

**Uşaq kitabları: 159**

**Koordinator**
Dr. Ömer Menekşe

**Mətn Hazırlayanlar**
Alparslan Durmuş
Xədicə Işılak
İlyas Aslan
Nəriman G. Karatekin

**Pedaqoji Müşaviri**
EDAM

**Mahiyyət Yoxlama**
Mücahid Çevik
Pınar Koç Yıldırım

**İllüstrasiya**
Turqut Yılmaz

**Qrafiq Tətbiqi**
Nurgül Moldalieva
Mücella Tekin

**Tərcümə**
Azərbaycan Respublikası
GYF Təlif-Tərcümə Mərkəzi
Tərəfindən Azərbaycan Dilinə
Uyğunlaşdırılmışdır

**Çap**
Yenigün Matbaacılık
Tel: (0312) 354 91 31

**Ankara, 2008**
**ISBN:** 975-19-3595-4

**© Diyanət İşləri Başqanlığı**
**Dini Nəşrlər Dairəsi Başqanlığı**

**Ünvan**
Eskişehir Yolu 9. km. Çankaya / Ankara
Tel : 0(312) 295 72 94 • Faks : 284 72 88
www.diyanet.gov.tr
diniyayinlar@diyanet.gov.tr

Din İşləri Yüksək Kurulunun 15.07.2004 tarixli və 128 saylı qərarı ilə bu kitabın nəşr olunması məqsədəuyğun hesab edilmişdir.

Gözümüzün nuru olan sevimli balalar!

Qəlblərimiz, Həyatın baharını və təlim-tərbiyə baxımından ən verimli çağını yaşayan siz uşaqlarımız üçün sevgi ilə döyünür.

Yeni gözəllikləri sizinlə əldə etmək istəyirik. Yaradılışımız, İslamla, gözəllik və yaxşılıqlarla bəzədilmişdir. Allah sevgisi və əxlaq gözəlliyi tərbiyə ilə həyatımıza əks edir. Ancaq o zaman Allaha yaraşan gözəl bir insan oluruq.

Əlinizdəki bu kitab, uşaq yaradılışınızdakı gözəllikləri ortaya çıxarma məsuliyyəti ilə hazırlandı. Həcmi kiçik olsa da bilik, duyğu və davranış dünyamıza anlamlı təsirlər bəxş edəcəyinə inanırıq. Çünki bu kitabda; dinin əhəmiyyət verib öyrədilməsini istədiyi faydalı bilikləri tapacaqsınız. Allahın adı ilə başlamağın verdiyi mənəvi ləzzəti, salamlaşmağın yaxınlaşdıran gücünü hiss edəcəksiniz. Söz və davranış bütünlüyü içində ən yaxşı nümunəni, ailə və cəmiyyət həyatı üçün təməl əxlaq prinsiplərinin və bir qismini də öz marağınızın ixtiyarına buraxdığımız mövzuları oxuyacaqsınız.

İnanırıq ki, oxuyarkən düşünəcək və duyacaq, Rəbbimizin etməmizi isdədiklərini xoşunuza gələrək yerinə yetrəcəksiniz. “Etmə” dediklərindən də çəkinəcəksimiz. Ümidimiz yaxşılıqlara sevinmək, pisliklərdən çəkinmək, qəlbimizin bir qarışqanı belə əzməyəcək qədər həssaslaşması ilə yanaşı bütün bunları mənimsəmək. Dəyər verdiklərimizi yaxşılıqdan yana istifadə edə bilmək… Bunlar, bizim məsuliyyətlərimizdir və siz də məsuliyyət ala biləcək vəziyyətdəsiniz.

Sizə dəyər verir və güvənirik. Allah Təala yolunuzu açıq, addımlarınızı qəti və uğurlu etsin.

**DİYANƏT İŞLƏRİ BAŞQANLIĞI**

# *İçindəkilər*


**İMAN** 4

**I Bölmə**

Ula Yaradanımız və Rəbbimiz: Allah . . . . . . . . . . 6

**II Bölmə**

1. Rəbbimizin Əmrindəki Mənəvi Vəzifəlilər: Mələklər . . . . . . . . . . 11
2. İlahi Məlumat Mənbələri: Müqəddəs Kitablar . . . . . . . . . . 12
3. Allahın Göndərdiyi Seçilmiş Rəhbərlər: Peyğəmbərlər . . . . . . . . . . 13
4. Bu Dünyadan Sonrası: Axirət Həyatı . . . . . . . . . . 15
5. Allahın Çaşmaz Ölçüsü: Qədər və Qəza . . . . . . . . . . 17

**İBADƏT** 20

**I Bölmə**

Rəbimizin Hüzurunda Gündə Beş Dəfə: Namaz . . . . . . . . . . 23

**II Bölmə**

Nəfs və İradə Tərbiyəsi: Oruc . . . . . . . . . . 28

**III Bölmə**

1. Allahın Verdiklərindən Onun Üçün Sərf Etmək: Zəkat . . . . . . . . . . 31
2. Müqəddəs Yerə Yolçuluq: Həcc . . . . . . . . . . 33

**ƏXLAQ** 36

**I Bölmə**

1. İslam Gözəl Əxlaqdır . . . . . . . . . . 38
2. Əxlaq Mənbəyi Sevgili Peyğəmbərimiz . . . . . . . . . . 40

**II Bölmə**

Özümüz və Ailəmizə Qarşı Vəzifələrimiz . . . . . . . . . . 42

**III Bölmə**

Ətraf Mühitə və Bütün Insanlara Qarşı Vəzifələrimiz . . . . . . . . . . 46

# İman

Dinimi Öyrənirəm

## Tədqiq et-Araşdır-Fikirləş

*„Ey iman gətirənlər!" Allaha və Peyğəmbərinə Onun Öz Peyğəmbərinə endirdiyi kitaba (Qurana) və ondan əvvəl nazil etdiyi kitablara iman gətirin! Allaha, Onun mələklərinə kitablarına, peyğəmbərlərinə və axirət gününə inanmayan kəs, şübhəsiz ki, (doğru yoldan) çox azmışdır.*

(Nisa, 136)

1. Bu kəlmələrin mənalarını əldə edə bildiyiniz lüğətlərdən araşdırıb dəftərinizə yazın: ***İman, mömin, İslam, Müsəlman, vəhy.***

2. Gündəlik danışıqda çox istifadə etdiyimiz və içində aşağıdakı kəlmələrdən birinin olduğu bir məsəl və ya atalar sözünü müəyyən etməyə çalışın: Allah, mələk, Quran, peyğəmbər, axirət, qiyamət. Bu ifadələrdən nə üçün istifadə edildiyini dostlarınızla müzakirə edin.

3. Əldə etdiyiniz müxtəlif mənbələrdən və ya Dinayət İşləri Başqanlığının Azərbaycan dilində nəşr etdiyi kitablardan imanla əlaqəli bölmələri oxuyun.

Allahın yaratdığı bütün varlıqlar arasında insan ayrıca bir mövqeyə malikdir. Ona bu fərqliliyi verən ən əsas xüsusiyyət fikirləşə bilməsidir. İnsan düşünmə qabiliyyəti sayəsində yaxşı ilə pisi, gözəl ilə çirkini, doğru ilə yalanı bir-birindən ayıra bilir. İnsanın yemək, içmək, yatmaq kimi müxtəlif istək və ehtiyacları vardır. Bunlar əldə edilə bilməzsə bədən öz fəaliyyətini davam etdirə bilməz, sağlam bir həyat yaşaya bilməz. Eyni şəkildə insanın inanmaq, fikirləşmək, sevmək, sevinmək, kədərlənmək, əxlaqlı olma kimi fizioloji olmayan ehtiyacları da vardır. Onun ən çox ehtiyac hiss etdiyi mənəvi ehtiyacı isə inanmaq, iman etməkdir. Ancaq bu ehtiyaclar ödənirsə insan, həqiqi mənada xoşbəxt və hüzurlu olur.



İman, bir şeyə heç bir şübhə hiss etmədən inanmaq və güvənməkdir. İman edən şəxsə də mömin deyilir. Dinimiz İslamın inanc (iman) əsasları 6 maddədə cəm edilə bilər: Allaha, mələklərinə, kitablarına, peyğəmbərlərinə, axirət gününə, qəza və qədərə iman etmək. Bunlar “Aməntü” deyilən mətndə öz əksini tapır.

***“Aməntünü” bilmirsinizsə böyüklərdən öyrənin.***

# I BÖLMƏ

## *Ulu Yaradanımız və Rəbbimiz: Allah*

*"...Kim Allaha iman gətirsə, (Allah) onun qəlbini haqqa doğru yönəldər. Allah hər şeyi biləndir."*

(Sura Tegabun [Amăgirea], 11)

*"Ən gözəl adlar (əsmayi-hüsna) Allahındır. Onu bu adlarla çağırıb dua edin..."*

(Əraf, 180)

İman əsaslarının mərkəzində "Allaha iman" durur. Allaha iman Onu tanımağı vacib edir. Biz onun sahib olduğu xüsusiyyətləri, göndərdiyi peyğəmbərlərdən və müqəddəs kitablardan öyrənə bilərik. Bu məlumat, Onun ***"əsmayi-hüsna"*** dediyimiz gözəl adlarında cəmlənmişdir.



## Allahın Sifətləri:

İman edib sevdiyimizi dilə gətirdiyimiz Allah, ən gözəl və ən üstün xüsusiyyətlərə malikdir:

| Zati sifətlər | Sübuti sifətlər |
|---|---|
| Vücud<br>*Vardır.* | Həyat<br>*Mütləq diridir.* |
| Qidəm<br>*Başlanğıcı yoxdur.* | Elm<br>*Hər şeyi bilir.* |
| Bəqa<br>*Sonu yoxdur.* | Səmi<br>*Hər şeyi eşidir.* |
| Vəhdaniyyət<br>*Birdir.* | Bəsər<br>*Hər şeyi görür.* |
| Müxaləfətun lil həvadis<br>*Yaradılmışlara bənzəməz.* | Kəlam<br>*Doğru və gözəl danışar.* |
| Qiyam bi-nəfsihi<br>*Heç kimə və heç nəyə möhtac deyil.* | İradə<br>*Mütləq iradə sahibidir.* |
| | Qüdrət<br>*Hər şeyə gücü yetər.* |
| | Təkvin<br>*Istədiyini yaradır.* |

Allahın zati və sübuti sifətlərindən başqa səlbi, feli və xəbari-mütəşabih sifətləri də vardır.

Allah, ən uca varlıqdır. O əzəli və əbədidir. Həmişə vardır və həmişə də var olacaqdır. Birdir və bənzərsizdir. Heç bir varlıq ona oxşamaz. O heç nəyə möhtac deyildir. Hər kəs və hər şey ona möhtacdır. Kainatda nə varsa, hamısının həqiqi sahibi Odur.

O ölümsüzdür, mütləq diridir. Ondan başqa hər şey ötəridir. O, hər şeyi və hər kəsi sonsuz elmi ilə bilir. Heç bir şey ondan gizlənə bilməz. Zehnimizdən keçən hər şeydən xəbərdardır. Harada oluruqsa olaq, hər sözü eşidir və hər şeyi görür. Dua edən hər kəsi eşidər və onların istəklərinə cavab verər. Əmr və istəklərini peyğəmbərləri vasitəsilə insanlara bildirir. Nə istərsə heç kimə möhtac olmadan edər və heç kim onun istəyinə mane ola bilməz. İstədiyini istədiyi şəkildə yaradır. Bir şeyə “ol” dedisə o şey dərhal olur. Bütün kainatı o yaratmışdır. Yaratdıqlarına nəzər salanda hər birində ayrı bir məqsəd olduğu və hər şeyin bir-birilə uyğunluğu görünür.

***Ətrafımızdakı varlıqların nə üçün yaradıldıqlarını fikirləşin. Bunların arasında sizə boş yerə yaradılmış kimi görünənlər varmı? Bu mövzunu yoldaşlarınızla müzakirə edin. Hər varlığın yaradılış məqsədini tapmağa çalışın.***

## Allahın adı ilə…

Allaha iman gətirmək, Onu sevməyi lazımlı edir. Sevmək isə yalnız sözlə olmaz, sevginin davranışlarla ortaya çıxması lazımdır. Allaha iman edən şəxsin Onun əmr və istəklərini yerinə yetirməyə çalışması buna görədir. Allahın, onu daim gördüyünü bilən insan bütün hərəkətlərində Onun rizasını qazanmaq məqsədi daşıyır. Bu da Allahı daim xatırlamaqla olur. Hər hansı bir şəxsin Allahı xatırlamasını göstərən amillərdən biri də başlayacağı hər işdən əvvəl “bəsmələ” çəkməsidir. Bəsmələ çəkmək, *“Bismillahir-rəhmanir-rəhim”* cümləsini deməkdir. Bu cümlənin mənası belədir: *“mərhəmətli, rəhmli Allahın adı ilə.”* Bu ifadəni qısa olaraq *“Bismillah”* da deyirik. Bunun mənası isə *“Allahın adı ilə”* deməkdir. Hamımız, bəsmələ çəkməklə üç şey etmiş oluruq:

- ***Allaha olan inancımızı ifadə edirik.***
- ***Başlayacağımız işdə Allahdan kömək istəyirik.***
- ***Onun hər an bizimlə olduğunu dilə gətiririk.***

**Bismillahirrahmânirrahîm**









***Allahın gözəl adlarından yeddisini öyrənib həftənin hər günü bunlardan birisi ilə dua edin. Misal: “Allahım! Sən Hafizsən, qoruyansan; məni bütün pis və pisliklərdən qoru!”***



*Aşağıda gündəlik danışıqda tez-tez istifadə etdiyimiz məsəl və deyimlər verilir. Ətrafınızdakılardan soruşaraq səhifəni genişləndirin. Dilimizdə nə üçün içində "Allah" adı keçən bu qədər çox məsəl və ifadələrin olduğu haqqında yoldaşlarınızla danışın.*

- Allah atalı-analı böyütsün!
- Allah bərəkət versin!
- Allah gümüş qapını bağlasa, qızıl qapını açar!
- Allah da sənə yetirsin!
- Allah yaxşılığını versin!
- Allah qorusun!
- Allah rahatlıq versin!
- AAllah dost olduqdan sonra qılıncın ağacdan da olsa kəsər.
- Allah bir, Peyğəmbər haqq; doşab qara, qatıq ağ.
- Allah səbr versin!
- Allah sevdiyinə qovuşdursun!
- Allah kor quşun ruzisini yuvasında yetirər!
- Allah verərsə əl gətirər, sel gətirər, yel gətirər!
- Allah amanında!
- Allahın istədiyi olur!
- Qorx Allahdan qorxmayandan!
- Söz bir, Allah bir!
- Allah insana bir ağız, iki qulaq verib ki, bir deyib iki dinləsin.
- Allah kömək edərsə quluna, hər iş düşər yoluna.







## Allaha İman Edən İnsan...

- ✓ Allahı sevər, Allahın da onu sevdiyini bilir.
- ✓ Allahın hər şeyi gördüyünü və hər sözü eşitdiyini bildiyi üçün tək olanda da, başqalarının yanında da, dürüst və fəzilətli davranır, içdə də, üzdə də eyni olur.
- ✓ Allahın ədalətli olduğunu, ədalətli olanları sevdiyini bilir; heç kimin haqqına toxunmaz və haqsızlığa da dözməz.
- ✓ Hər şeyin Allah tərəfindən yaradıldığını bildiyinə görə bütün varlıqlara sevgi və mərhəmətlə münasibət göstərir.
- ✓ Allahın bütün duaları eşitdiyini bilir; hər zaman Allaha sığınır və güvənir. Beləcə hər cür çətinliyə qalib gəlmək gücü qazanır. Yaradılma məqsədini, haradan gəldiyini və haraya gedəcəyini bilir və özünü arxayın hiss edir.

## II BÖLMƏ

# 1. Rəbbimizin Əmrindəki Mənəvi Vəzifəlilər: Mələklər

Allahın nurdan yaratdığı və gözümüzlə görə bilmədiyimiz varlıqlara mələk deyilir. Mələklərin cinsiyyəti yoxdur. Onlar yeyib içməzlər, Allahın əmrlərinə heç etiraz etmədən yerinə yetirirlər. Fasiləsiz olaraq, gecə-gündüz Allahı zikr edərlər. Hər birinin müxtəlif vəzifələri olan mələklərin dəqiq sayını yalnız Allah bilir. Mələklərdən dörd dənəsi Cəbrail, Mikail, İsrafil və Əzraildir.

*"Göylərdə və yerdə olan (bütün) canlılar, hətta mələklər belə heç bir təkəbbür göstərmədən Allaha səcdə edərlər!"*

(Nəhl, 49)

### Mələklərə İman Edən İnsan...

- ✓ Heç vaxt yalnız olmadığını, qoruyucu (mühafizə) mələkləri vasitəsilə Allahın, onu qoruyub mühafizə etdiyini bilir.
- ✓ Gözətçi mələklərin (kiramən katibin), onun etdiyi yaxşı və pis hər şeyi qeyd etdiklərini bilir; davranışlarında daha diqqətli olur.
- ✓ Mələklərin onun üçün dua etdiklərini bilir; o da həm özü, həm də digər Müsəlmanlar üçün dua edər.

# 2. İlahi Məlumat Mənbələri: Müqəddəs Kitablar

*"...Allah onlara müjdə verən və xəbərdarlıq edən (əzabla qorxudan) peyğəmbərlər göndərdi, insanlar arasındakı ixtilafları ayırd etmək üçün O, peyğəmbərlərlə birlikdə haqq olan kitab nazil etdi..."*

(Bəqərə, 213)

Müqəddəs kitablar, Allahın buyruğunu, əmr və qadağanlarını insanlara bildirdiyi məlumatları əhatə edən kitablardır. Bunlar, insanın dünyada yaxşılığı, doğrunu və gözəli tapa bilməsi və pis şeylərdən çəkinməsi üçün Allah tərəfindən insanlara göndərilən yol göstərən bir bələdçidir. Həmin kitablar bunlardır: Tövrat, Zəbur, İncil və Quran. Müqəddəs kitablar müxtəlif zamanlarda müxtəlif cəmiyyətlərə göndərilsə də hamısı eyni dəvəti edir: Sağlam iman, doğru hərəkət, gözəl əxlaq. Digər kitablar müəyyən bir cəmiyyətə, son kitab Quran isə bütün cəmiyyətlərə göndərilmişdir. Allahın ən son bildirişi olan Quran, dünyanın sonuna kimi qüvvədə qalmaq şərtilə sevimli peyğəmbərimiz Həzrət Mühəmmədə (əleyhissəlam) endirilmişdir. Digər kitabların orjinalları qorunmamışdır. Quran isə bir hərfi belə dəyişmədən varlığını davam etdirmiş, etdirir və etdirəcəkdir. Dünyada ən çox oxunan kitab Qurandır. Oxunması da ibadətdir.



***Allahın, Qurandan əvvəlki kitablarını hansı peyğəmbərlərə göndərdiyini araşdırın.***

### Kitablara İman Edən İnsan…

- Allahın, insanları dünya həyatında rəhbərsiz buraxmadığını, onlara yol göstərdiyini bilir; Allaha olan güvənci artar.
- Allahın buyruğunu başa düşməyə və başa düşdüklərini tətbiq etməyə çalışar.
- Allahın kitabını oxuyar; oxuduqlarının könüllərə hüzur və şəfa verdiyini bilir.
- Qurani-Kərimi əlinə alanda özü kimi milyonlarca Müsəlmanın eyni kitabı oxuduğunu bilir və beləcə birlik və bərabərlik duyğusu inkişaf edir.



*Kur'an*

## 3. *Allahın Göndərdiyi Seçilmiş Rəhbərlər: Peyğəmbərlər*

Allah, müxtəlif vaxtlarda doğru yolu göstərmək üçün, göndərdiyi kitabları insanların ən doğru şəkildə başa düşmələri və tətbiq etmələri üçün rəhbərlər göndərmişdir. Bu rəhbərlərə peyğəmbər deyilir. Peyğəmbərlər, Allahın əmrlərini başa salmaq, öyrətmək və tətbiq etmək vəzifələrini nöqsansız yerinə gətirmişlər. Onlar həyatın hər sahəsində nümunə olurlar. Peyğəmbərlər, iman edib yaxşı və faydalı iş görən insanlara əldə edəcəkləri gözəl mükafatları müjdələmişlər. Ay-

*"Biz Peyğəmbərləri ancaq müjdə verənlər və (əzabla) qorxudanlar olaraq göndərdik. İman gətirib yaxşı işlər görənlərin heç bir qorxusu yoxdur və onlar qəm-qüssə görməzlər!"*
(Ənam, 48)

rıca, Allahın buyruqlarına tabe olmasaq qarşılaşacağımız pis nəticələr haqqında da bizi xəbərdar etmişlər. Onlar öz cəmiyyətlərində dürüst, etibarlı, fəzilətli, zəki və günah işləməyən şəxslər olaraq önə çıxmışlar. Allah insanlara çoxlu peyğəmbər göndərmişdir, ancaq Quranda yalnız iyirmi beş peyğəmbərin adı verilir.

Allahın ən son kitabı olan Quranı bizə çatdıran son rəhbər isə sevimli peyğəmbərimiz Həzrət Mühəmməddir *(səllallahu əleyhi və səlləm)*. O, Allahın göndərdiyi peyğəmbərlərin axırıncısıdır. Bütün insanlara mərhəmət olaraq göndərilmişdir. O, Quranın hökmlərini həyatının normalarına çevirən nümunəvi insandır.

## Peyğəmbərlərə İman Edən İnsan…

- ✓ Hər sahədə onları özünə nümunə götürür.
- ✓ Dürüstlük və doğruluq nümunəsi olan peyğəmbərlər kimi dürüst və doğrucul olmağa çalışır.
- ✓ Peyğəmbərlərin davranış və tətbiqlərini öyrənir, bunları öz həyatında tətbiq etmək üçün səy göstərir.
- ✓ Peyğəmbərlərin hamıya ədalətli rəftar etdiyini bilir, özü də onlar kimi ədalətli olmağa səy göstərir.

***Quranda adı çəkilən Peyğəmbərləri öyrənin.***
***Günümüzdə bu adların hansılarından istifadə edildiyini araşdırın.***

# 4. Bu Dünyadan Sonrası: Axirət Həyatı

Həyatı da, ölümü də yaradan Allahdır. Canlı olan hər şey dünyaya gəlməkdə, yaşamaqda və ölməkdədir. Payız gələndə ağacların yarpaqları saralıb tökülməyə başlayır; yazla birlikdə ağaclar çiçəklənib meyvə verir. İnsanlar da belədir. Hər insan bir gün öləcəkdir. Ancaq ölüm son demək deyil, yeni və fərqli bir həyatın başlanğıcıdır.

Hər canlının bir sonu olduğu kimi, içində yaşadığımız kainatın da bir sonu vardır. Kainatın varlığının sona çatıb yox olmasına qiyamət günü deyilir. Qiyamətin vaxtını Allahdan başqa heç kəs bilə bilməz. O qəfildən, bir anda gələcəkdir. Qiyamətdən sonrakı dövrün adı axirət həyatıdır.

Allah, dünya həyatını yaxşıları və pisləri bir-birindən ayırd etmək üçün bir sınaq yeri olaraq yaratmışdır. Heç kimə haqsızlıq etməyən və ədalətli olan Allah, buyruqlarına tabe olanları və tabe olmayanları axirətdə ədalətli bir şəkildə mühakimə edəcəkdir. Dünya həyatı axirət üçün bir hazırlıq yeridir. Bu dünyada etdiyimiz əməllər, axirətdə yolumuzu ya aydınladacaq, ya da qaraldacaqdır.

*"Allahdan qorxub pis əməllərdən çəkinənlər isə cənnətlərdə və bulaqlar başında olacaqlar. Ora sağ-salamat və (hər şeydən) əmin olaraq daxil olun! Biz onların ürəklərindəki kin-küdurəti çıxarıb atdıq. Onlar qardaş olub taxt üstündə qarşı-qarşıya əyləşərlər. Onlara orada (Cənnətdə) heç bir yorğunluq (zəhmət) üz verməz. Onlar oradan çıxan da deyillər. (Cənnətdə əbədi qalacaqlar)."*
(Hicr, 45-48)

***Dilimizdə məhşərlə əlaqəli istifadə olunan məsəlləri müəyyən edin. Yoldaşlarınızla bunların hansı hallar üçün istifadə olunduğunu müzakirə edin.***

Axirət həyatı hər kəsin yenidən diriləcəyi və ədalətlə mühakimə olunacağı günlə başlayacaqdır. Mühakimə günündə (məhşər) hamı Allahın hüzuruna gələcək və kim kiçik bir yaxşılıq belə etmişsə, onun əvəzini alacaq, kim də kiçicik bir pislik etmişsə, o da onun əvəzini alacaq.

Dünya həyatında Allahın əmrlərinə uyğun yaşamayanlar, tövbə edib bağışlanmazsa, cəza yerinə cəhənnəmə daxil olacaqlar. Allahın buyruqlarına uyğun yaşayanlar isə tayı-bərabəri olmayan cürbəcür mükafatların, hər cür meyvənin və hər cür nemətin olduğu Cənnətdə yaşayacaqlar. Orada nə yandırıcı isti var, nə də dondurucu soyuq. Cənnətdə hər kəsə gözünün gördüyü və ürəyinin istədiyi hər şey ikram ediləcəkdir.

## Axirətə İman Edən İnsan…

- ✓ Yaxşı, ya da pis etdiyi heç bir şeyin əvəzsiz qalmayacağını bilir.
- ✓ Allahın Cənnətdə onun üçün hazırladığı nemətlərə qovuşmaq üçün Onun buyruqlarını yerinə yetirməyə çalışır.
- ✓ Dünya həyatının bir tarla, axirətin də məhsul yığma zamanı kimi olduğunu bilir; dünyadakı həyatını ən gözəl şəkildə səmərələndirməyə çalışır.
- ✓ Zəifin güclüdən haqqını alacağı bir günün mütləq gələcəyini bilir; heç kimə haqsızlıq etmir.

***Cənnətdə Allahın sizə nə cür nemətlər bəxş etməsini istəyərdiniz?***

# 5. Allahın Çaşmaz Ölçüsü: Qədər və Qəza

Allah, kainatda nəyin, nə zaman və necə olacağını hələ o şeylər olmazdan əvvəl sonsuz və mütləq biliyi ilə bilir. Çünki kainatı yaradan və ondakı hər şeyə incə və çaşmaz bir ölçü qoyan Allahdır. Allah, insanı yaratmış, davranış və hərəkətlərində onu sərbəst buraxmışdır. İstəyən doğruya, istəyən də yanlışa üstünlük verə bilər. Allah, İnsanın necə hərəkət edib hansı nəticə ilə qarşılaşacağını da sonsuz elmi ilə bilir. Allahın hər şeyə bir ölçü və nizam təyin etməsinə, hər şeyi bilib təqdir etməsinə qədər; vaxtı gələndə həmin biliyin gerçəkləşməsinə və hadisələrin meydana gəlməsinə də qəza deyilir.

*"(Yerdə və göydə) elə bir şey yoxdur ki, onun xəzinələri Bizdə olmasın. Lakin biz ondan ancaq müəyyən (lazım olduğu) qədər endiririk."*

(Hicr, 21)

## Qədərə İman Edən İnsan…

- ✓ Allahın hər şeyi bildiyinə, Ondan xəbərsiz bir yarpağın belə tərpənmədiyinə inanır.
- ✓ Allahın kainatda qoyduğu tarazlığı qorumağa və pozmamağa diqqət yetirir.
- ✓ Allahın hər şeyi bir nizam içində yaratdığını bilir və bu nizamın bir hissəsi olaraq qarşılaşdığı çətinliklərlə mübarizədə Allaha güvənir.



©1994, Hasan Aycın, **Bocurgat,** Yedi Gece Kitapları

# Allahım!

***Rəhman**san; fərq qoymadan mərhəmət edənsən, bizə mərhəmət et!*
***Rəhim**sən; Səni sevənləri sevginlə əhatə edənsən, bizi sevdiklərinin sırasına daxil et!*

**_Qüddus_**sən; hər cür qüsurdan uzaqsan, bizi kirlərimizdən pak et!
**_Salam_**san; hər cür təhlükədən qoruyarsan, bizi qorxularımızdan uzaq et!
**_Mömin_**sən; qəlblərə güvənc verənsən, bizi Sənə olan güvəncimizlə möhkəm et!
**_Əziz_**sən; sonsuz və uca şərəf sahibisən, bizi şərəfsiz eyləmə!
**_Mütəkəbbir_**sən; hər şeydən böyüksən, bizi yekəxanalıqdan qoru!
**_Bari_**sən; hər şeyi bir-birinə uyğun yaradansan, bizi bu uyğunluqdan uzaqlaşdırma!
**_Müsəvvir_**sən; hər varlığa gözəl şəkil verənsən, bizə verdiyin gözəlliyi qoruma gücü ver!
**_Qaffar_**san; çox-çox əfv edənsən, bizi əffindən məhrum etmə!
**_Vəhhab_**san; bol-bol hədiyyələr verənsən, bizi hədiyyələrinlə sevindir!
**_Rəzzaq_**san; hər kəsə rizqini verənsən, süfrəmizi nemətsiz qoyma!
**_Fəttah_**san; hər şeyi sonuna qədər açansan, üzümüzə qapını bağlama!
**_Alim_**sən; hər şeyi haqqı ilə bilənsən, bizi cahil olmaqdan qoru!
**_Qabiz_**sən; istədiyini sıxansan, bizi darlığa düşürmə!
**_Basit_**sən; istədiyini genişləndirənsən, bizi genişliklə rahatlandır!
**_Xafiz_**sən; istədiyin kəsi alçaldansan, bizi kiçik düşürmə!
**_Rafi_**sən; dilədiyini ucaldarsan, bizi də ucalt!
**_Muiz_**sən; izzət və şərəf verənsən, bizə şərəf nəsib et!
**_Müzil_**sən; xor və haqir edənsən, bizi haqir etmə!
**_Səmi_**sən; gizli-açıq hər sözü eşidənsən, bizi sənə dua etməkdən uzaqlaşdırma!
**_Bəsir_**sən; hər şeyi bütün incəlikləri ilə görənsən, bizə incəliyi görəcək göz ver!

*Allahım!*

***Ədl**sən; ədaləti haqqı ilə tətbiq edənsən, bizi zülmdən uzaq eylə!*
***Lətif**sən; lütfü və kərəmi bol olansan, bizi lütf dənizində üzdür!*
***Xəbir**sən; hər şeydən xəbərdar olansan, bizi özümüzdən xəbərsiz eyləmə!*
***Həlim**sən; yaratdıqlarına yumşaq davranansan, bizə yumşaq davranmağı öyrət!*
***Əzim**sən; əzəmət və böyüklük sahibisən, bizi kiçik düşürmə!*
***Qafur**san; qullarının günahlarını bağışlayansan, bizim günahlarımızı bağışla!*
***Şəkur**san; şükürləri qəbul edənsən, bizə şükr etmə imkanı ver!*
***Hafiz**sən; hər şeyi qoruyansan, bizi çirkinliklərdən qoru!*
***Həsib**sən; hər şeydən hesab soruşansan, bizi verə bilməyəcəyimiz hesaba çəkmə!*
***Kərim**sən; yaxşılıq və ikramı bol olansan, bizə comərd olmağı öyrət!*
***Rəqib**sən; bütün varlıqlara nəzarət edənsən, bizə nəzarət olunduğumuzu unutdurma!*
***Mücib**sən; duaları qəbul edənsən, dualarımızı cavabsız qoyma!*
***Həkim**sən; hər şeyi yerli yerində edənsən, bizi yararsız işlərdən uzaqlaşdır!*
***Vədud**san; bəndələrini çox sevənsən, bizə sevməyi öyrət!*
***Bais**san; ölüləri dirildənsən, bizi xoşbəxt dirilt!*
***Şəhid**sən; hər şeyə şahid olansan, Səni sevdiyimizə şahid ol!*
***Haqq**san; yeganə həqiqət sənsən, bizə öz həqiqətindən ilham ver!*
***Vəkil**sən; özünə arxalanılansan, bizə sənə arxalanmağı unutdurma!*
***Qəvi**sən; güc və qüvvət sahibisən, bizi sevginlə gücləndir!*
***Mətin**sən; heç sarsılmayansan, bizi zəifliyimizlə baş-başa buraxma!*
***Vəli**sən; inananların dostusan, bizi dostluğuna qəbul et!*
***Həmid**sən; tərifə layiq olansan, bizə Səni öymə ləzzətini daddır!*

# İbadət



## Tədqiq et-Araşdır-Fikirləş



**“De: Mənim namazımda, ibadətimdə, həyatım və ölümüm də aləmlərin Rəbbi Allah üçündür!”**

(Ənam, 162)

1. ***Kəlmeyi-şəhadət, namaz, oruc, zəkat*** və ***həcc*** sözlərinin mənalarını, ya da bu ibadətlərlə əlaqəli şer, hekayə və tapmacalar öyrənmək üçün böyüklərinizə müraciət edin, öyrəndiklərinizi dəftərinizə yazın!
2. Bu bölməni işləyəcəyiniz zaman ərzində yoldaşlarınızla birlikdə qərar verərək hər bir həftəni bir mövzuya ayırın: ***“Məscidlər və din xadimləri həftəsi”***, ***“Yoxsulları qoruma həftəsi”*** və s. kimi.
3. ***“Allahın sevgisini qazanmaq üçün edilən hər iş iba-dətdir”*** sözünə əlavə gündəlik həyatınızdan nümu-nələr gətirərək yoldaşlarınızla danışın.
4. Ramazan ayı nə üçün vacibdir və qədr gecəsi nə üçün min aydan xeyirlidir? Yoldaşlarınızla biliklərinizi bölüşün.
5. Əldə etdiyiniz müxtəlif mənbələrdən və ya Dinayət İşləri Başqanlığının Azərbaycan dilinə uyğunlaşdırdığı aşağıdakı kitablardan ibadətlə əlaqəli bölmləri oxuyun:

   a) ***Cib Elmihalı,*** Məhməd Soymən

   b) ***İslam Dinində Haramlar və Böyük Günahlar,*** Lütfi Şəntürk

İbadət, Allaha könüldən istəyərək yönəlmək, boyun əymək və itaət etməkdir. İbadət, Yaradana olan sevginin nəticəsidir və yalnız Allah üçün edilir. Bütün ibadətlərin əsasında Allaha iman durur.

İnsan, Yaradana olan sevgisini necə göstərir? Onun nədən xoşlanacağını necə bilir? Qurani-Kərimdə Peyğəmbərimizə (səllallahu əleyhi və səlləm) insanlara bu dəvəti etməsi əmr edilmişdir: ***“(Ya Rəsulum!) De: Əgər siz Allahı sevirsinizsə, Mənim ardımca gəlin ki, Allahda sizi sevsin və günahlarınızı bağışlasın. Allah bağışlayandır. Rəhmlidir!***” (Ali-İmran, 31) Bundan aydın olur ki, lazım gəldiyi şəkildə ibadət etmək ancaq peyğəmbərimizə inanıb Onun izi ilə getməklə mümkündür. Onsuz da bütün ibadətlərin əsası, Allah və peyğəmbərə inanmaq və onlara bağlılığını ifadə etməkdir ki, bu da kəlmeyi-şəhadətdə təsbit edilmişdir:

***Qəbul edirəm ki, Allahdan başqa ilah yoxdur,***
***Və şahidəm ki, Mühəmməd Onun qulu və elçisidir.***

İnancının tələb etdiyi yaxşı, müsbət və faydalı hər davranışı insanın ibadəti sayılır: Allah yolunda səy göstərmək, yaxşılığa sövq etmək, Quran oxumaq, pisliyə əngəl olmaq kimi. Namaz, oruc, həcc və zəkat isə İslamın təməl ibadətləridir. Bu ibadətlərin zamanı, yeri, ediliş tərzi və miqdarı dinimizcə müəyyən edilmişdir.

Ağlı sahibi, yetkinlik yaşına çatmış və lazımi şərtləri daşıyan hər müsəlman bu ibadətləri yerinə yetirməyə məsuldur. Bu xüsusiyyətləri daşıyan insanlara mükəlləf deyilir. Dinimizə görə mükəlləflərin bütün davranışlarının bir adı vardır:

***Bir gündə qılınan beş vaxt namaz əsnasında "Allahu Əkbər" sözünü neçə dəfə təkrarladığımızı sayın. Böyüklərinizlə bu sözün mənası və həyatımızdakı yeri barəsində müzakirə aparın.***

## Fərz

Dinimizə görə edilməsi qəti şəkildə əmr olunan, mükəlləflərin etmələri məcburi olan, etmədikdə isə günahkar sayılacaqları davranışlardır. (Sözündə durmaq, namaz qılmaq, ədalətli davranmaq kimi).

## Haram

Dinimizin edilməsini qəti olaraq yasaqladığı, mükəlləflərin etməmələri lazım gələn, etdikdə də günah işləmiş sayılacaqları davranışlardır. (Yalan danışmaq, qeybət qırmaq, oğurluq etmək kimi)..

## Sünnət

Peyğəmbərimizin etdiyi və edilməsini tövsiyə etdiyi davranışlardır. (Gülər üzlü olmaq, dişləri fırçalamaq, gözəl geyinmək kimi).

## Məkruh

Dinimizcə qəti olmayan bir dəlil ilə edilməsi yasaqlanan davranışlardır. (Yerlərə zibil atmaq, namaz qılarkən ətrafı ilə maraqlanmaq kimi).

## Mübah

Dinimizin mükəlləfləri edib-etməməkdə sərbəst buraxdığı davranışlardır. (Yeyib-içmək, gəzib dolaşmaq, israfa yol vermədən alış-veriş etmək kimi).

# I BÖLMƏ

## Rəbbimizin Hüzurunda Gündə Beş Dəfə: Namaz

İslamın təməl əsaslarından biri namaz qılmaqdır. Namaz, Allahı anma və Ona yalvarma məqsədi ilə müəyyən şərt və hərəkətlərlə gündə beş dəfə yerinə yetirilən şərtdir. İnsanı mənən Allaha ucaldır. Namaz, imandan sonra dinin ən mühüm əmridir.

Namazın vaxtında qılınması Allahın ən sevdiyi davranışlar arasındadır. İslamdan əvvəlki dinlərdə də namaz fərz qılınmışdır. Hər hansı bir üzr və ya məşru bir əsas olmadan namazın tərk edilməsi böyük günahdır. Su tapılmadıqda təyəmmmüm edərək, xəstə olduqda oturaraq, ya da yataraq da olsa namaz qılınması əmr olunmuşdur.

*"Mən, həqiqətən, Allaham. Məndən başqa heç bir tanrı yoxdur. Mənə ibadət et və Məni anmaq üçün namaz qıl!"*
(Taha, 14)



***Namaz dinin dirəyi,***
***Möminin meracı,***
***Gözümüzün nuru,***
***Cənnətin açarıdır.***



## Namazın Fərzləri:

Namazın 12 fərzi vardır. Altısı namaza başlamazdan əvvəl edilir; bunlara namazın şərtləri deyilir. Altısı da namazın içində edilir; bunlara da namazın rüknləri deyilir.

## I. Namazın Şərtləri:

Namaz İnsan ilə Allah arasında bir növ görüşdür. Belə mühüm bir görüş hazırlıqsız olmaz. Namaza başlamazdan əvvəl yerinə yetirilməsi vacib olan bəzi şərtlər vardır:

1. *Hədəsdən Təharət:* Mənəvi təmizlik deməkdir. İnsan Yaradanın hüzuruna hər cür mənfilikdən təmizlənmiş olaraq çıxmalıdır. Dəstəmaz və qüsl, namazdan əvvəl pisliklərdən təmizlənmək deməkdir.
2. *Nəcasətdən Təharət:* Maddi təmizlik deməkdir. Namaz qılınacaq yerin və namaz qılacaq şəxsin üstündəki qiyafələrin təmiz olması lazımdır. Peyğəmbərimiz (səllallahu əleyhi və səlləm) "Namazın açarı təmizlikdir." buyurmuşdur. (Əbu Davud, Təharət, 31/61)
3. *Sətri-Övrət:* Ədəb yerlərini örtmək deməkdir. Namaz qılacaq şəxsin örtünməsi lazım gələn yerləri örtməsi vacibdir.
4. *İstiqali-Qiblə:* Kəbə istiqamətinə dönmək deməkdir. Bu, qəlbin Allaha yönəlməsi mənasını daşıyır.
5. *Vaxt:* Hər namazın özünə aid bir vaxtı vardır və həmin vaxtda qılınar. Yuxlama və unutma səbəbdən vaxtında qılına bilməyən namazlar ən qısa zamanda qəza edilməlidir.



6. *Niyyət:* Namaz yalnız bir sıra hərəkətlərin yerinə yetirilməsi deyildir. Bu hərəkət və davranışların namaz məqsədi ilə edilməsi şərtdir. Bunu ayrıca dil ilə ifadə etmək də gözəldir.

*“(Ya Rəsulum!) Qurandan sənə vəhy olunanı oxu və (vaxtlı-vaxtında) namaz qıl. Həqiqətən, namaz (insanı) çirkin və pis əməllərdən çəkindirər. Allahı zikr etmək şübhəsiz ki, (savab etibarı ilə bütün başqa ibadətlərdən) daha böyükdür. Allah nə etdiklərinizi bilir!”*

(Ənkəbut, 45)





## II. Namazın Rüknləri:

Namazın şərtlərini yerinə yetirən şəxs artıq namazını qıla bilər. Namaz əsnasında da edilməsi lazım gələn şeylər vardır. Bunlara ***namazın rüknləri*** deyilir:

1. *İftitah Təkbiri:* Hər namaza mütləq Allahın ucalığını ifadə edən “Allahu Əkbər” sözü ilə başlamaqdır.
2. *Qiyam:* Gücü çatanların namazı ayaq üstə qılması lazımdır.
3. *Qiraət:* Quran oxumaqdır.
4. *Rüku:* Əlləri dizə qoyaraq Allahın hüzurunda əyilməkdir.
5. *Səcdə:* Alın, burun, iki diz, iki əl, iki ayağı yerə qoyaraq Allahın hüzurunda yerə qapılmaqdır.
6. *Qədeyi-Əxirə:* Namazın sonunda əttəhiyyatu duasını oxuyacaq qədər oturub gözləməkdir.

Dinin özəyində birlik və bərabərlik olduğundan, namazların ***camaatla*** qılınmasına səy göstərilmişdir. Bununla bərabər camaatla qılınması zəruri olan namazlar da vardır: ***Həftədə bir dəfə Cümə və ildə iki dəfə Bayram namazı.***

*Peyğəmbərimiz (səllallahu əleyhi və səlləm) bir gün yoldaşlarına “Qapınızın önündən axan bir çay olsa və gündə beş dəfə bu çayda yuyunsanız sizdə heç kir qalarmı?” deyə soruşmuş, yoldaşları “Xeyr!” cavabı verdikdə “Baxın, beş vaxt namaz da belədir. Allah, namaz ilə günahları silər” buyurmuşdur.*

(Buxari, Məvaqit, 6)

## Dəstəmazın Fərzləri:

1. Üzü yumaq,
2. Əlləri dirsəklərlə bərabər yumaq,
3. Başın ¼ -ni məsh etmək,
4. Ayaqları topuqlarla bərabər yumaq.

## Qüslün Fərzləri

1. Ağızı yaxşıca yumaq
2. Burunu yaxşıca yumaq
3. Bütün bədəni quru yer buraxmadan yumaq

## Təyəmmümün Fərzləri:

1. Niyyət etmək
2. Əlləri iki dəfə torpağa vurub birinci vuruşda üzü, ikinci vuruşda qolları məsh etmək.




Yan tərəfdəki məscid planını tədqiq edin bir məsciddə vəzifəli birindən planda rəqəmlərlə göstərilən qismlərin adlarını öyrənib yazın.

## Namaz Qılan İnsan...

- Çirkin və pis olan hər cür davranışdan qorunar.
- Allahın böyüklüyünü təkrar-təkrar dilə gətirərək Ona olan bağlılığını möhkəmləndirər.
- Daim Allahı yada salar, gün boyu hər bir davranışında razılığına nail olmağa çalışar.
- Dəstəmaz alaraq təmizliyinə diqqət yetirər, təmizliyə vərdiş edər. Ayrıca dəstəmaz, ona mənəvi dayaq olar.
- Təyin olunmuş zamanlarda namaz qılmaqla zamanını planlaşdırmağı öyrənir.
- Gündəlik məşğələlərdən müəyyən zaman fasilələrində ayrılıb Rəbbi ilə əlaqə qurmağın ləzzətini duyar.
- Uca Allahın ***"Ey iman gətirənlər! Səbr və dua ilə (namazla Allahdan) kömək diləyin. Çünki Allah səbr edənlərlədir. (Onların dostudur)"*** (Bəqərə, 153) dəvətinə uymuş olur və bu sayədə çətinliklərə qarşı dözümlü hala gəlir.
- Qıldığı namazlarla daxilini saflaşdırır, qəlbindəki nuru çoxaldır.
- Bədən, dil, ağıl, könül, zaman və məkan ilə edilə biləcək bütün təşəkkürləri Allaha təqdim etmə fürsəti tapır.

# II BÖLMƏ

## Pisliklərdən Uzaqlaşmağı Öyrədən: Oruc

*"Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib (fərz) edildiyi kimi sizə də vacib edildi ki, (bunun vasitəsi ilə) siz pis əməllərdən çəkinəsiniz!"*

(Bəqərə, 183)

Ramazan orucu, İslamın təməl əsaslarından biridir. Oruc, mükəlləf olan kişi və qadınların imsak vaxtından iftar vaxtına qədər, şüurlu olaraq heç bir şey yeməməsi, içməməsi və cinsi əlaqədə olmamasıdır. Oruc, Allah rizasını qazanmaq məqsədi ilə tutulmalıdır.

Yolçuluq və xəstəlik kimi vəziyyətlərdə Oruc tutulmaya bilər. Bu vəziyyətlərdən qurtaranda oruc qəza edilir. Oruc tutmağa əngəl törədən uzun müddətli xəstəliyi olan şəxslər oruc tuta bilmədiyi hər gün üçün bir fidyə verir. Oruc tuta bilməyənlərin, İnsanların görəcəyi şəkildə yeyib-içməkdən çəkinmələri oruca, orucIulara və orucluq ayına hörmətdəndir. Hər hansı bir şeyi bilərək yemək, içmək, ya da cinsi əlaqədə olmaq orucu pozar.



***"Oruc tutmaq", "Oruc açmaq", "Oruc pozmaq" nə deməkdir?***
***Böyüklərinizdən mənalarını öyrənin.***

***İmsak:*** Oruca başlama zamanıdır. Dan yeri ağarmasından əvvəlki vaxt olub sübh namazının başlanğıcıdır.

***İftar:*** Orucun sona yetdiyi, günəşin batdığı və axşam namazı vaxtının girdiyi zamandır.

***Qəza:*** yolçuluq və xəstəlik kimi hallar səbəbdən oruc tutula bilmədikdə, ramazan ayı xaricində, şəxsin istədiyi bir zamanda tutmadığı gün sayı qədər oruc tutmasıdır.

***Fidyə:*** Vaxtında tutula bilməyən, uzunmüddətli bir üzr səbəbi ilə daha sonra da qəza edilə bilməyən bir günlük oruca əvəz olaraq şəxsin özünün yediyi bir günlük yemək məbləğini bir fağıra verməsi, ya da bir fağırı bir gün doydurmasıdır.

## Oruc Tutan İnsan…

- ✓ Xüsusi bir mükafata haqq qazanır. Peyğəmbər Əfəndimiz (səllallahu əleyhi və səlləm), Allahın ***"Oruc Mənim üçündür, onun əvəzini Mən verəcəyəm"*** buyurduğunu (Buxari, Səvm, 9) xəbər verir.
- ✓ Arzularından öz istəyi ilə uzaq duraraq bir iradə tərbiyəsinə tabe olur.
- ✓ Acılq və susuzluq kimi, müəyyən nemətlərdən uzaq qalmağın verdiyi çətinliyə dözərək təhəmmül və səbr gücünü artırır. Peyğəmbərimiz (səllallahu əleyhi və səlləm) ***"Oruc, səbrin yarısıdır."*** buyurur. (Tərğib və tərhib, 11/208)
- ✓ Özünün sonsuz istək və zövqlərini cilovlayır, insanlar arasında narahatçılığa səbəb olan həddi aşmağın qabağını alır.
- ✓ Dilini pis və çirkin sözlərdən qoruyar. Peyğəmbərimiz (səllallahu əleyhi və səlləm), ***"Biri sizə sataşacaq və ya dalaşacaq olarsa 'mən orucluyam' deyin."*** buyurmuşdur. (Müslim, Siyam, 163)
- ✓ Özündən daha çox möhtac olanların halını başa düşər və onların sıxıntılarını yox etmə istiqamətində səy göstərir.
- ✓ İnanaraq və əvəzini yalnız Allahdan gözləyərək oruc tutduğu üçün keçmiş günahlarının bağışlanacağını bilir. Və həyatının qalan hissəsi üçün təmiz bir səhifə açar; özünü pisliklərdən və günahlardan çəkindirər.
- ✓ On bir ay boyunca davam etdirdiyi gündəlik həyat axarını dəyişdirə bildiyini görər, beləcə özünü də yaxşıya və gözələ doğru yönləndirə biləcəyini dərk edər.

*Aşağıda bir gündəlikdən götürülmüş bir parça var.*
*Əylənərək oxuyacaqsınız. Çünki bəzi sözlər şifrələnmişdir.*
*Görək şifrəni həll edə biləcəksinizmi?*

## "Xatirələr Dəftərində Bir Gül Yarpağı"

**25 Dekabr**

Bu gün evdə ayrı bir həyəcan var. Anam işlərini qurtarıb tələsik alış-verişə çıxdı. Babam nənəmdən qəhvə istəyib durur. Nənəm ona tənbeh etdikcə o: "Narahat olma. Səndən ❐❁❍❁▌❁■ ayı boyunca qəhvə istəməyəcəyəm."-deyir. Babam qəhvəsiz yaşaya bilməz. Sözündə necə duracaq, bilmirəm. Bu gün ilk ▼❋❐❁❖✻✻ namazı qılınacaq, ilk ▲❁✻◆❐❁ qalxılacaq.

Anama bu il Ramazanın başından sonuna qədər oruc tutacağımı söylədim. Çox sevindi. Axşam yeməyini yedikdən sonra dəstəmaz alıb məscidə getdik. Məscid ağzına qədər dolu idi. Namazdan sonra məsciddən çıxan insanları seyr etdim. Sevinc içindəki bu insan selini görəndə Allaha şükr etdim.

**26 Dekabr**

Məktəbdə bir ara oruclu olduğumu unudub su içdim. Nənəm orucumun pozulmadığını söyləyərək bu hadisəni "Allah səni sevir. Bax O sənin susuzluğunu aparmaq istəmiş."-deyə şərh etdi. "Mən də Allahı sevirəm."-dedim. Mən acdığımı söyləyəndə babam "Özünə bir məşğuliyyət tap."-dedi. Babamı da tapdığım məşğuliyyətə şərik etdim. Birlikdə qəzetin verdiyi oruc krossvordunu həll etdik. Mən sualları oxudum Babam cavabları söylədi. Bu babam nə çox şey bilirmiş, İlahi!

Anam Ramazana xas bir şirniyyat bişirmişdi. Ramazanın gülü güllaç. Şirniyyat boşqabını önümə çəkəndə babam "insanın özünü tərbiyə etməsi üçün ✻❄▼❁❐ süf-rəsi anı yaxşı bir vaxtdır."-dedikdən sonra başımı sığalladı. ✡✱ ❁❍ ❋▌❁■ nın oxunmasına az qalmışdı, amma vaxt keçmək bilmirdi. Əzan oxunanda "Aman, Allahım! əzanı eşitmək nə gözəldir!"-dedim. Hamı gülüşdü.

# III BÖLMƏ

## 1. Allahın Verdiklərindən Onun Üçün Sərf Etmək: Zəkat

İslamın təməl əsaslarından biri olan zəkat mal ilə edilən bir ibadətdir. Zəkat, zəruri ehtiyaclar ödəndikdən sonra, üzərindən bir il keçən müəyyən bir miqdar malın müəyyən bir hissəsinin (ümumən qırxda birinin) ildə bir dəfə möhtaclara verilməsidir. Zəkat Qurani-Kərimdə demək olar ki, hər yerdə namazla birlikdə adı çəkilir. Ona görə də zəkat müsəlmanların həyatında namaz qədər yer tutmalıdır ***"Allah, harada oluramsa olum, məni mübarək etdi və mənə diri olduqca namaz qılıb zəkat verməyi tövsiyyə buyurdu."*** (Məryəm, 31)

Zəkat, zənginin fağıra bir lütfü deyil, fağırın zənginin malındakı haqqıdır. ***"Mallarında da dilənçinin və yoxsulun haqqı var idi."*** (Zariat, 19) Zəngin şəxs, zəkatını verirkən qarşısındakını incitməmək üçün əlindən gələn səyi göstərməlidir. Çünki yaxşılıq edib sonra da bunu insanların başına çaxmaq, edilən yaxşılığın puç olmasına səbəb olur.

Zəkat ilk baxışda malın azalması kimi görünə bilər; ancaq zəkatı verilən mal, Allah tərəfindən bərəkətləndirilir, artıb-çoxalır: ***"Mallarını Allah yolunda sərf edənlərin halı yeddi sünbül verən bir toxuma bənzər ki, bu sünbüllərin hər birində yüz ədəd dən vardır. Allah istədiyi kimsə üçün bunu qat-qat artırır. Allah (lütfü ilə) genişdir."*** (Bəqərə, 261)

*"(Ya Rəsulum!) Onların mallarından sədəqə (zəkat) al. Bununla onları (günahlarından) pak etmiş, təmizləmiş olarsan. Onlardan ötrü dua et..."*

(Tövbə, 103)

*"Həqiqətən, möminlər nicat tapmışlar! O kəslər ki, namazlarında müti olub boyun əyərlər! O kəslər ki, lağlağıdan üz döndərərlər; O kəslər ki, zəkat verərlər."*

(Möminun, 1-4)

*Yunus Əmrənin aşağıdakı misralarını zəkat baxımından düşünüb fikirlərinizi yoldaşlarınızla bölüşün!*

*Mal sahibi, mülk sahibi…*
*Hanı bunun ilk sahibi?…*
*Mal da yalan, mülk də yalan,*
*Var bir az da sən oyalan.*

## Zəkat Verən İnsan…

- ✓ Xəsislik, mənəmlik, təkəbbür kimi pis xasiyyətlərdən özünü təmizləyər.
- ✓ Verdiyi nemətlər üçün Allaha şükr etməyin vacibliyini, şükrün isə yalnız söz ilə olmadığını, həm də şüurda olduğunu bilir.
- ✓ Zənginlər ilə kasıblar arasındakı iqtisadi ədalətsizliyin yox edilməsinə təkan verir. Beləcə zəngin və yoxsul arasında duyğulu yaxınlaşmaya, qarşılıqlı hörmət və sevginin inkişafına, ictimai barış şəraitinin yaranmasına səbəb olur.
- ✓ Cəmiyyətdə dilənçilik, oğurluq, cibgirlik kimi pis və üz qızardıcı vəziyyətlərin azalmasına vasitəçilik edir.
- ✓ İctimai vəzifələrini dərk edir, birlik və bərabərlik ruhu qazanır. Vücudun bir orqanı xəstələndiyi zaman digər orqanların da narahat olması kimi cəmiyyətdə mövcud olan problemlərdən acı duyur və həllinə öz səviyyəsində təkan verir.
- ✓ Özünü, sahib olduğu pul və əşyanın köləsi olmaqdan qurtarır. Əlindəki varlığın həqiqi sahibinin Allah olduğunu təsdiq etmiş olur.
- ✓ Vermə, bölüşmə, köməkləşmə, bir müsəlman qardaşının dərdinə çarə olma kimi əsas insani fəzilətlərlə kamilləşir və Peyğəmbər Əfəndimizin (səllallahu əleyhi və səlləm) ***“Verən əl alan əldən üstündür.”*** (Buxari, Nəfəqat, 1) müjdəsi ilə xoşbəxt olur.



***“Az sədəqə çox bəlanı dəf edər.”***
***sözünün mənasını yoldaşlarınızla müzakirə edin.***

# *2. Müqəddəs Yerə Yolçuluq:*
# *Həcc*

İslamın təməl əsaslarından biri olan həcc həm mal, həm də bədən ilə edilən bir ibadətdir. Həcc, ilin müəyyən bir zamanında Məkkədə olan Kəbəni və müəyyən edilmiş müqəddəs yerləri ziyarət etməkdir. İrq, rəng, cinsiyyət, dil, ictimai mövqe və yaş baxımından fərqli insanların bir-biri ilə bərabər bir halda bir araya gəldikləri illik bir toplanma əyyamıdır.

Həcc yolçuluğunda Məkkə şəhərindəki Kəbə başda olmaqla Səfa, Mərvə, Ərəfat, Müzdəlifə və Mina kimi müqəddəs yerlər ziyarət edilir.

*"...Onun yoluna (ərzaq, minik və sağlamlıq baxımından) gücü çatan hər bir kəsin həccə gedib o evi (Kəbəni) ziyarət etməsi insanların Allah qarşısında borcudur..."*
(Ali-İmran, 97)

***Ətrafınızdan həccə gedən birinə hansı yerləri ziyarət etdiyini, oralarda nələr hiss etdiyini soruşun.***

Məkkə ətrafında, miqat deyilən yerlər, hərəm bölgəsinin sərhədlərini müəyyən edir. Bu sərhədlərə çatanda geyimlər, ayaqqabı və corablar çıxarılıb iki dəsmala bürünüb həccə niyyət edilir və təlbiyyə gətirilir. Beləcə ehrama girilmiş və həcc ibadətinə başlanılmış olur. Həcc ayları içində həccin digər mənasiki (həccə aid əməllər) üsuluna uyğun olaraq yerinə yetirilir. Həcci nəsib edən Allaha təşəkkürün bir ifadəsi olaraq qyrban kəsilir və bununla da həcc tamamlanır.

## Həccin Fərzləri

**Ehram:** Həccə niyyət edib təlbiyyə gətirən şəxsin, adi zamanlarda edə bildiyi, çiçək üzmək, ağac kəsmək, saç-saqqal təraş etmək, tikişli paltar geyinmək, ov etmək kimi bəzi davranışlardan həcc müddətincə uzaq durmasıdır.

**Kəbəni Təvaf Etmək:** Həcərül-əsvədin yerləşdiyi küncdən başlayaraq Kəbənin ətrafında üsuluna uyğun olaraq yeddi dəfə dövrə vurmaqdır.

**Ərəfatda Vəqfə Etmək:** Zəvvarların, Məkkənin cənub şərqində yerləşən Ərəfata gedərək Qurban Bayramından bir gün əvvəl bir müddət orada dayanmalarıdır.

Təlbiyyə

*Allahım! Dəvətinə gəlirəm. Əmrinə boyun əyirəm.*
*Bütün varlığımla Sənə təslim oldum. Sənin heç bir ortağın yoxdur*
*Təkrar-təkrar dəvətinə gəlirəm. Şübhəsiz həmd Sənə məxsusdur.*
*Nemət də, mülk də sənindir. Sənin heç bir şərikin də yoxdur.*

**Qurban** ibadəti həm fərd, həm də cəmiyyət baxımından müxtəlif faydalar verən bir ibadətdir. Qurban kəsən şəxs Allaha bağlılığını göstərir, cəmiyyətdə qardaşlıq və həmrəylik duyğularının inkişafına təsir edir.

## Həcc Edən İnsan…

- ✓ Sadə bir qiyafə içində digər zəvvarlarla eyni şəraitdə hərəkət edərək bərabərlik duyğularını inkişaf etdirir.
- ✓ Məqam, nam, mal, mülk kimi maddi dəyərlərin bu gün var olsa belə, sabah yox olacağını sezər, beləcə ədalət duyğusu inkişaf edər.
- ✓ İrq, rəng, cinsiyyət, dil, yaş kimi hər cür fərqliliyin keçici və əhəmiyyətsiz olduğunu anlayar. İslam qardaşlığı ətrafında bütün insanlarla tanışıb qaynaşmağın əhəmiyyətini qavrayar.
- ✓ Allahın hüzurunda insanların etdiklərinin hesabını verəcəyi məhşər gününü xatırlayar və axirət üçün özünü hazırlama şüuru qazanır.
- ✓ Səbr, çətinliklərlə başa çıxa bilmə, toplu halda hərəkət edə bilmə,köməkləşmə, həmrəylik kimi gözəl xüsusiyyətlər qazanır.
- ✓ Allahın ona verdiyi sağlıq, qabiliyyət, mal, mülk kimi nemətlərə şükr etmiş olur.
- ✓ Həzrət Peyğəmbər və əshabələrinin yaşadığı yerləri gəzib görərək onların qoyduğu əmanətə daha möhkəm sahib olar.
- ✓ Dinin fərdi tərəfi ilə yanaşı ictimai tərəfinin də olduğunu hiss edərək toplum içindəki haqq və vəzifələrini, ona aid məsuliyyətlərini öhdəsinə götürür.


بسم الله الرحمن الرحيم
والعصر ١ إن الإنسان لفي خسر ٢
إلا الذين آمنوا وعملوا الصالحات
وتواصوا بالحق وتواصوا بالصبر ٣
كتبه حسين

# Əxlaq



## Tədqiq et-Araşdır-Fikirləş

1. ***Əxlaq, fəzilət, xasiyyət*** kəlmələrinin mənalarını lüğətlərdən araşdırın.
2. Gözəl əxlaqlı olmağı özümüzə düstur kimi qəbul edəriksə nə etməmiz lazımdır?
3. Görkəmli bir insanın tərcümeyi-halını araşdırıb, örnək davranışları ilə yoldaşlarınızı tanış edin.
4. Bəyəndiyiniz ən gözəl əxlaqi davranışınızı düşünüb onun sizə nələri qazandırdığını söyləyin.
5. Özünə və ailəsinə qarşı əxlaqi vəzifələrinin şüurunda olan bir müsəlman nələr edər?
6. Peyğəmbərimizin (səllallahu əleyhi və səlləm) "Bütün uşaqlar Müsəlman olaraq doğulur." (Müslim, Qədər, 25) sözündən nə başa düşürsünüz?
7. Ətrafınızdakılardan müsahibə alaraq Peyğəmbərimizin (səllallahu əleyhi və səlləm) əxlaqının onlarda oyandırdığı təəssüratları söyləmələrini tələb edin.
8. Ətrafına və bütün insanlara qarşı vəzifəsinin fərqində olan bir müsəlman nələr edər?
9. Peyğəmbərimizin vida xütbəsini oxuyaraq əxlaqi öyüdlərini tapın.
10. Bir dostunuza gözəl əxlaqlı olmağın faydalarını necə başa salarsınız?
11. Əldə edə bildiyiniz müxtəlif mənbələrdən əxlaqa aid yuxarıda adı keçən mövzuları oxuyun.

## Həyatın Əks-sədası

Bir adam ilə oğlu gedirdilər. Uşağın ayağı ilişib birdən yıxıldı. “Ah!”-deyə bağırdı. İrəlidə bir dağın təpəsindən “Ah!”-deyə bir səs eşidildi. Uşaq maraqlı-maraqlı “Sən kimsən?”-deyə soruşdu və “Sən kimsən?” cavabını aldı. Bu dəfə hirsləndi və “Sən qorxağın birisən!”-deyə bağırdı. Dağdan gələn səs “Sən qorxağın birisən!” oldu. Uşaq atasına döndü: “Ata, bu nədir belə?” Atası dağa dönüb “Sənə heyranam.”-deyə bağırdı. Gələn cavab “Sənə heyranam.” oldu. Ata təkrar bağırdı: “Sən möhtəşəmsən!” Gələn cavab “Sən möhtəşəmsən!” oldu. Uşaq çox çaşdı, amma hələ nə olduğunu dərk edə bilmirdi. Atası olanları izah etdi: “Buna əks-səda deyilir. Əslində bu həyatdır. Həyat, daim sənə, sənin ona verdiklərini geri qaytarır.”

İnsan insanın güzgüsüdür. Həyatımızı və münasibətimizi müəyyənləşdirən, bir-birimizə qarşı davranışlarımızdır. Bizlə necə davranılmasını istəyiriksə, biz də elə davranmalıyıq. Nə görmək istəyiriksə, elə də rəftar etməliyik: sevgi gözləyiriksə-sevgi, şəfqət istəyiriksə-şəfqət, hörmət umuruqsa-hörmət… Nə ilə üzləşmək istəmiriksə, onu etməməliyik. Düşmənliklə qarşılaşmamaq üçün düşmənçilikdən, eqoistlik görməmək üçün eqoistlikdən, haqsızlığa uğramamaq üçün haqsızlıqdan çəkinməliyik.

***Qızıl Düstur:***
*Səninlə necə davranılmasını istəyirsənsə, sən də elə davran.*

*Sevimli Peyğəmbərimiz (səllallahu ələyhi və səlləm) belə buyurur: “Sizdən biri özü üçün istədiyini (Müsəlman) qardaşı üçün də istəməsə həqiqi iman etmiş sayılmaz.”*

(Buxari, İman, 7)

# I BÖLMƏ

## 1. İslam Gözəl Əxlaqdır

Gözəl əxlaq, doğru prinsiplərin insanda davranış halına gəlməsi, doğru davranışların da vərdiş halını almasıdır. İslamın ən mühüm məqsədi, insanların gözəl əxlaq sahibi olmaları və kamilləşmələridir. Peyğəmbər Əfəndimiz (səllallahu əleyhi və səlləm) ***"Mən gözəl əxlaqı tamamlamaq üçün göndərildim"*** buyurur. (Muvatta, Hüsnül-Xülq, 8).

Bir müsəlmanın dəyəri əxlaqının gözəlliyi ilə ölçülür. Peyğəmbərimiz (səllallahu əleyhi və səlləm) yaxşı əxlaq sahiblərini sevdiyini bildirmiş ***"Allah qatında ən çox sevilən qullar kimlərdir?"*** sualına da ***"Əxlaqı ən gözəl olanlardır."*** cavabını vermişdir. (Tərğib və Tərhib, 4/182).

İslam dini, iman və ibadət əsasları ilə insanları pis xasiyyət və vərdişlərdən qurtarıb gözəl əxlaq sahibi olmaları məqsədini güdür. Əvvəlki bölmələrdə, Allaha, mələklərinə, kitablarına, peyğəmbərlərinə, axirət gününə, qəza və qədərə iman edən, namaz qılan, oruc tutan, həccə gedən və zəkat verən bir insanın əldə etdiyi gözəl xüsusiyyətlərlə tanış olduq. Bununla yanaşı insanın imanının və ibadətinin dəyəri də əxlaqının gözəlliyindən asılıdır. Çünki, Allahın razılığını qazanmağın yolu gözəl əxlaqdan keçir.

*"Kim yaxşı əməl sahibi olub özünü (səmimi-qəlbdən) Allaha təslim edərsə, o, artıq ən möhkəm ipdən yapışmış olur. Bütün işlərin axırı Allaha gəlib çıxacaqdır!"*
(Loğman, 22)

İman və ibadət əsaslarını Qurani-Kərimdən və Peyğəmbərimizin (səllallahu əleyhi və səlləm) sünnəsindən öyrəndiyimiz kimi nəyin yaxşı, gözəl və faydalı olduğunu, nəyin pis, yanlış, ya da zərərli olduğunu da eyni mənbələrdən öyrənirik. Gözəl əxlaqa sahib

ola bilmək üçün Allahın əmrlərinə sarılır, yasaqlarından çəkinirik. Bu əmr və ya-saqların hamısı bir-birilə əlaqəlidir.

Sahib olduğumuz gözəl bir vərdiş özü ilə birlikdə digər gözəl xasiyyətləri gətirir. Pis xasiyyətlərdən də uzaq qalmağımıza və qurtarmağımıza təkan verir. Məsələn ədalətli olmağa çalışan bir şəxs, başqalarının haqqlarına hörmətlə yanaşır. Ata-anasına, yoldaşlarına, qohumlarına, özündən kiçik və böyüklərə, eləcə də Allahın yaratdığı hər şeyə saygı göstərir. Çünki Allaha duyduğu saygı ona öz məsuliyyətlərini dərk etdirir.

Qanadı sınıq bir quşa, küncdə ağlayan bir uşağa, ondan kömək istəyənlərə qarşı məsuliyyət hiss edir. Mənəmlikdən uzaqlaşır, fədakar davranmağa başlayır. Ətraf mühitinə mərhəmət və şəfqətlə baxır, sahib olduğu nemətlər üçün Allaha şükr edir. Şükrü imanını artırır, imanı da cəsarətini…

Haqsızlıq və zülmlə qorxmazcasına mübarizə aparır, mübarizə etdikcə əzm və səbri inkişaf edər. Səbri onu kindən uzaq tutar; beləcə pisliyə qarşı yaxşılıq edərək onun qabağını almağı öyrənər. Verdiyi sözləri tutmayan yoldaşına, özü verdiyi hər sözü yerinə yetirərək örnək olar.

Sözünü tutduğu üçün hörmət görür, səmimi dostluqlar qurur. Dostluq onu qısqanclıqdan uzaqlaşdırır, ona vəfalı olmağı öyrədir. Özünə və cəmiyyətə əməyi keçənlərə də vəfa göstərir. Əməyin qiymətini bilir, heç kimi və heç nəyi kiçik görməz. Allahın yaratdığı hər şeydə bir gözəllik olduğunu görür. Həyata nikbin baxır, xoşbəxt olur. Yoldaşlarını sevgi ilə salamlar, xoşbəxtliyini ətrafdakılarla bölüşər.

*Sevimli Peyğəmbərimiz (səllallahu əleyhi və səlləm)*
*belə buyurur:*
*"Kiçiklərimizə sevgi və şəfqət göstərməyən,*
*böyüklərimizin dəyərini bilməyən bizdən deyildir. "*
(Əbu Davud, Ədəb, 58)

# 2. Əxlaq Mənbəyi Sevimli Peyğəmbərimiz

*“Həqiqətən, Allahın Rəsulu Allaha, qiyamət gününə ümid bəsləyənlər və Allahı çox zikr edənlər üçün gözəl örnəkdir.”*

(Əhzab, 21)

Peyğəmbərimiz (səllallahu əleyhi və səlləm) Allahın dəvətini insanlara çatdırma vəzifəsini yerinə yetirərkən həm də bu dəvətin hökmlərini ən gözəl şəkildə yaşayan şəxsiyyət olmuşdur. Onun həyatı necə davranmağımız lazım gəldiyi mövzusunda bizə ən gözəl şəkildə bələdçilik edir. İçində olduğumuz şərait nə olursa-olsun Onun həyatından bir nümunə tapa bilir və özümüzü Həzrət Peyğəmbərin təlimində şəkilləndirə bilərik.

O hansı vaziyyətdə, necə davranmışdır? Onun həyatını öyrəndikcə sizə necə yol göstərdiyini də kəşf edəcəksiniz. Şəxsi həyatınızda qarşılaşacağınız vəziyyətlərdə Peyğəmbər Əfəndimizin (səllallahu əleyhi və səlləm) sizə necə nümunəlik edəcəyinə dair bir neçə örnək verək:

- ✓ Zəngin və imkanlısansa Peyğəmbər Əfəndimizin (səllallahu əleyhi və səlləm) ticarətlə məşğul olduğu, karvanları aparıb-gətirdiyi zamankı comərdliyini yada sal!
- ✓ Fağır və yoxsulsansa Peyğəmbər Əfəndimizin (səllallahu əleyhi və səlləm) vətənini və bütün var-dövlətini tərk edərək Məkkədən Mədinəyə hicrət etdiyi zamankı səbrini yada sal!
- ✓ İdarə başçısısansa, dövrün irəli gələnləri Ona itaət edəndə Peyğəmbər Əfəndimizin (səllallahu əleyhi və səlləm) onlara necə ədalətli davrandığını yada sal!

- ✓ Özünü zəif və kimsəsiz hiss edirsənsə, Peyğəmbər Əfəndimizin (səllallahu əleyhi və səlləm) Məkkədə başına gələn sıxıntı və əziyyətləri yada sal!
- ✓ Bir işdə qalib gəldinsə, Peyğəmbər Əfəndimizin (səllallahu əleyhi və səlləm) Bədr, Huneyn və Məkkədə düşmənə qələbə çaldığı günlərə baxaraq Onun davranışlarını yada sal!
- ✓ Məğlub olduqda Peyğəmbər Əfəndimizin (səllallahu əleyhi və səlləm) Uhud döyüşündə şəhid olan və ağır xəsarət alan əshabələri arasında kədərli bir şəkildə dolaşdığını ancaq yenə də ümidini itirmədiyini yada sal!
- ✓ Birinə bir şey öyrədirsənsə, Peyğəmbər Əfəndimizin (səllallahu əleyhi və səlləm) məsciddə əshabələrinə necə müəllimlik etdiyini yada sal!
- ✓ Birindən bir şey öyrənirsənsə Peyğəmbər Əfəndimizin (səllallahu əleyhi və səlləm) Cəbrailin qarşısında necə diz çöküb İlahi bilikləri öyrəndiyini yada sal!
- ✓ Heç bir köməkçin olmadığı halda ədaləti gerçəkləşdirmək, yaxşılığı yaymaq istəyirsənsə Məkkədəki zəif halına baxmayaraq Peyğəmbər Əfəndimizin (səllallahu əleyhi və səlləm) haqqı və ədaləti açıqca elan etdiyi zamanı yada sal!
- ✓ Bir hadisə, ya da oyunda hakim olursansa İslam gələndən əvvəl Qureyş rəisləri bir-birləri ilə döyüşmək üzərə ikən, Həcərül-əsvədi yerinə qoymaq üçün Peyğəmbər Əfəndimizin (səllallahu əleyhi və səlləm) onlar tərəfindən nə üçün hakim qəbul edildiyini və Onun necə bir hökm verdiyini yada sal!




***Yoldaşlarınızla bir müsəlmanın özünə və ailəsinə qarşı vəzifələrini fikirləşin. Hamı əlifbadakı hərflərin sırasına riayət edərək həmin hərflə başlayan bir cümlə deyin.***

***Məsələn:***

***(A) Allaha ibadət etmək müsəlmanın vəzifələrindəndir.***

***(B) Böyüklərinə hörmət etmək müsəlmanın vəzifələrindəndir.***

***(Növbəsi gəldikdə münasib bir cümlə quraşdıra bilməyənlər oyundan çıxsın.)***

II BÖLMƏ

# 3. Özümüz və Ailəmizə Qarşı Vəzifələrimiz

*"Rəbbin yalnız Ona ibadət etməyi və valideynlərə yaxşılıq etməyi (onlara yaxşı baxıb gözəl davranmağı) buyurmuşdur. Əgər onların biri və ya hər ikisi sənin yanında (yaşayıb) qocalığın ən düşkün çağına yetərsə, onlara: "Uf!" belə demə, üstlərinə qışqırıb acı söz söyləmə. Onlarla xoş danış! Onların hər ikisinə acıyaraq mərhəmət qanadının altına alıb: "Ey Rəbbim! Onlar məni körpəliyimdən (nəvazişlə) tərbiyə edib bəslədikləri kimi, Sən də onlara rəhm et!"-de."*

(İsra, 23-24)

Allahın, hər zaman, hər şeyi gördüyünə, edilənləri bildiyinə, gizli-açıq hər şeydən xəbərdər olduğuna inanan bizlər davranışlarımızı bu inancla şəkilləndiririk. Bu inanc insanı öz davranışlarının nəticələrini üstələməyə, vəzifəsi olan işləri haqqı ilə yerinə yetirməyə yönəldir. Buna məsuliyyət deyilir. Həm Allaha, həm insanlara, həm də bütün məxluqata qarşı məsuliyyətimiz olduğu kimi, özümüzə və ailəmizə qarşı da məsuliyyətlərimiz vardır. İnsan başqalarına qarşı məsuliyyətlərini yerinə yetirə bilmək üçün də birinci özünə qarşı məsuliyyətləri yerinə yetirməlidir.

*"(Ya Rəsulum!) Sənə əmr edildiyi kimi, düz (yolda) ol..."*
(Hud, 112)

*"...Öz əlinizlə özünüzü təhlükəyə atmayın..."*
(Bəqərə, 195)

Peyğəmbər Əfəndimiz (səllallahu əleyhi və səlləm) "Bütün uşaqlar müsəlman olaraq doğulurlar" buyurmuşdur. Yaradılışımızdakı düzgünlüyü və saflığı mühafizə etmək özümüzə qarşı vəzifələrimizin başda gələnidir. İnanmaq insanın ən təməl ehtiyacıdır. İnsan ancaq iman ilə xoşbəxt olar. Vicdanı ancaq yaxşı və gözəl davranışlarla rahata qovuşar.

İnsan ağlının və zəkasının ehtiyacı isə bilikdir. Bilik, iman ilə birləşdikdə insanı hər cür pislik və çirkinlikdən qoruyar.

Biliyə sahib olma qabiliyyəti insana verilmiş ən mühüm bir nemətdir. Bu qabiliyyətindən istifadə etməyən insan öz ağıl və zəkasına zülm etdiyi kimi, Allahın verdiyi bu nemətə də şükr etməmiş olur.

İnsan, bilik və iman sahibi olduqda ibadətlərini yerinə yetirməsi lazım gəldiyinin də fərqinə varır. İbadətlər, Allaha sayğının ifadəsi olduğu kimi insanın dünya və axirət səadətinin də şərtidir. Dünya və axirət səadətinə qovuşmaq istəyən insanın özünə qarşı vəzifələrinin ən mühümlərindən biri də ibadətlərini yerinə yetirməsidir.

Bütün bu vəzifələri yerinə yetirə bilmək üçün insan, bədən sağlamlığına diqqət yetirməyə məsuldur. Bədənimiz və sağlığımız Allahın bizə verdiyi bir əmanətdir. Hamımız bu əmanəti qorumağa məsuluq. Peyğəmbər Əfəndimiz (səllallahu əleyhi və səlləm) ***"Sənin bədəninin səndə haqqı vardır."*** buyurmuşdur. (Tac, 2/100)

İnsan, xüsusilə ən yaxınlarına qarşı vəzifələrini yerinə yetirməlidir. Bu insanların başında da ata və ana gəlir. Ata-anamızı söz, ya da davranışlarımzla heç bir şəkildə incitməmək, onlarla gülərüzlü və şirin sözlü davranmaq, onların istəklərini yerinə yetirməyə çalışmaq bizim vəzifələrimizdəndir.

***"Allahın ən çox sevdiyi davranış vaxtında qılınan namaz ilə ata-anaya yaxşılıq etməkdir. "***

(Tirmizi, Səlat, 127/176)

## Özünə və Ailəsinə Qarşı Əxlaqi Vəzifələrini Düşünən Bir Müsəlman…

- ✓ Gördüyü işi ən yaxşı şəkildə görməyə çalışar. Çünki Allaha və öz vicdanına hesab verməsi lazım gəldiyini fikirləşir.
- ✓ Özünə öyrədilənləri ən gözəl şəkildə öyrənməyə çalışır, biliyini artırmaq üçün səy göstərir.
- ✓ Yalnız başqalarına qarşı deyil, özünə qarşı da dürüstdür.
- ✓ İmkan və bolluğa nail olarsa, şükr edər, darlıq və sıxıntıya düşərsə, ümidsizliyə qapılmaz. Qarşılaşdığı hər şeydə özü üçün xeyir və gözəlliklər olduğunu bilir.
- ✓ Gücünün fövqündə hər hansı bir şeylə məsul tutulmadığını bilir. Məsul olduğu şeylərin tələb etdiyini yerinə yetirmə barəsində əndişə daşımaz. Çünki ***"Allah hər kəsi yalnız qüvvəsi yetdiyi qədər yükləyət (bir işə mükəlləf edər)…"*** (Bəqərə, 286)
- ✓ Yaxşı və pis bütün davranışlarının əvəzini görəcəyini bilir və ailə içindəki məsuliyyətlərini başqalarına yükləməyə çalışmaz.
- ✓ Eqoistlikdən uzaqlaşır, ailə fərdlərinə sevgi və yaxınlığı artır, bunun da münasibətlərinə müsbət təsir edəcəyini bilir.
- ✓ Peyğəmbər Əfəndimizin (səllallahu əleyhi və səlləm) həyatını özünə nümunə götürür. Ailəsi və qohumları ilə münasibətini onun davranışları işığında tənzim edir. Problemlər qarşısında zəiflik göstərməz, onları həll etməyə çalışar.
- ✓ Cahilcə edilən yanlış bir davranışın cəsarət deyil, cürətkarlıq və özünü bilməzlik olduğunu dərk edir.
- ✓ Hər zaman doğru olanı etməyə çalışır.

***Özünüzü xəyalınızdakı sənətə çatmış bir şəxs kimi fikirləşin.***
***Doktor, mühəndis, memar, müəllim, qazı, imam, pilot…***
***Vəzifənizi edərkən nələrə diqqət yetirməniz lazım gəldiyini söyləyin.***

**Aşağıdakı vəziyyətləri müzakirə edin:**

- Vücudumuzdakı orqanların vəzifələrini fikirləşin. Orqanlarımızdan biri vəzifəsini yerinə yetirməzsə, nə olar?
- Ailə fərdlərinə düşən vəzifələr nələrdir? Yerinə yetirilməzsə, nə olar?

✓ Heç bir zaman və heç kimə qarşı dürüstlüyündən əsla ayrılmaz.

✓ İsraf etməz, xəsislikdən çəkinər.

✓ Böyüklərinə və kiçiklərinə səbrli, sayğılı davranır.

✓ Mənfi vəziyyətlər qarşısında özünü tələsən reaksiyalardan qoruyar. Hadisələrə tələsmədən, təlaşlanmadan, sakitliyini qoruyaraq yaxınlaşır. Qərarlı və əzmli davranır.

✓ Həyatını Allahın qoyduğu ölçülərə görə tənzim edərək qorxusuz və diqqətli şəkildə sonuna qədər çətinliklərə dözər.

✓ Qardaşlarını və ya başqalarını qısqanmaz, hər kəsə qarşı xoş xasiyyətlidir.

✓ Bütün davranışlarında və sözlərində səmimiyyəti hiss edilir.

*Aşağıda bəzi davranış nümunələri verilmişdir. Yaxşı bir müsəlmanın etməsi uyğun olan davranışlara D (düz), etməsi uyğun olmayan davranışlara S (səhv) hərfini qoyun.*

( ) Oğurluq etməz.
( ) Söz gəzdirər, dedi-qodu edər.
( ) Qumar oynamaz.
( ) Eqoistdir, həmişə özünü fikirləşir.
( ) Ətrafındakı möhtaclara kömək edər.
( ) Başqasının malını alır və işlədir.
( ) Öz mənafeyini qoruyar, başqalarınınkinə əhəmiyyət verməz.
( ) Özünə zərər verən içkilərdən istifadə etməz.
( ) Özünə əmanət edilən malı qoruyar.
( ) Qul haqqından çəkinər heç kimə haqsızlıq etməz.
( ) Haram yeməz, halal qazanca riayət edər.
( ) Sözündə durmaz.
( ) Ölçü və çəkidən çalar.
( ) Yetim və yoxsulları qoruyar.
( ) Səbrsiz və tələsgəndir.
( ) Qarşısındakını aldadır.
( ) Zina etməz.
( ) Gülərüzlüdür, heç kimə qışqırmaz.
( ) Rüşvət alıb-verir.
( ) Borcuna sadiq deyildir.
( ) Etdiyi yaxşılığı başa qaxar.
( ) Hər şeyə qarşı insaflı və mərhəmətlidir.
( ) Yalan danışmaz.

# III BÖLMƏ

## *Ətraf Mühitə və Bütün İnsanlara Qarşı Vəzifələrimiz*



*"Ey iman gətirənlər! Allah qarşısında (borcunuzu yerinə yetirməkdə) sabitqədəm və ədalətli şahidlər olun. Hər hansı bir camaata qarşı olan kininiz sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun. Bu, təqvaya daha yaxındır… "*

(Maidə, 8)

İslam əxlaqı hər insanın təməl haqqlarına hörmət qoymağı lazım bilir. Hər insan; yaşamaq, halal şəkildə mal-dövlət sahibi olmaq, şəxsiyyətinə qarşı hörmət qoyulma, digər insanlarla bərabər münasibət görmə, şəxsi həyatına qarışılmama, yeyib-içmə, geyim, məskən kimi zəruri ehtiyaclarını qarşılama kimi haqqlara sahibdir.

*Peyğəmbər Əfəndimizdən (səllallahu əleyhi və səlləm): "Ən xeyirli insan kimdir?" -deyə soruşuldu. Peyğəmbərimiz: "İnsanlara ən çox faydası toxunanlardır." buyurdu.*

(Cameus-Səgir, 9/47)

Müsəlmanlar bir-birlərinin və bütün insanların haqqlarına saygı göstərirlər. Bundan da əlavə, qardaş olduqlarının şüuru ilə, bir-birlərinin sıxıntılarını dəf etməyi, yüklərini paylaşmağı qarşılaşdıqları çətinliklərdə köməkləşməyi vəzifə sayırlar. Çətin vəziyyətə düşənin problemini həvəslə, səmimiyyətlə, heç bir sıxıntı hiss etmədən aradan götürməyə çalışırlar. Onlara bir pislik ediləndə bağışlayarlar, kin saxlamazlar. Eyni pis vəziyyətlə bir daha qarşılaşmamaq üçün diqqətli olmağı və tədbir görməyi də yaddan çıxarmazlar.

***"Özü-sözü, içi-çölü bir olmaq" nə deməkdir? İzah edin.***

*"Onlar elə güman edirlər ki, (qəlblərində olan küfrü gizlətməklə) Allahı  və möminləri aldadırlar. Bilmirlər ki, əslində ancaq özlərini aldadırlar."*

(Bəqərə, 9)

*"Özünü aldatmaq" nə deməkdir? İzah edin.*

Müsəlmanlar hər zaman nəzakətlə davranırlar. İnsanlarla qarşılaşanda salam verirlər, şirin dillə danışırlar. Möhtac olanı gördükdə başqasının kömək etməsini gözləmədən özləri kömək edərlər. Ətraflarında müsbət dəyişikliklər edəcək gücü hər zaman özlərində taparlar. Şərəf, dəyər və haqqlarına bir hücum olarsa, bunlarla sona qədər mübarizə aparırlar. Haqsızlıq kimə qarşı edilmiş olursa-olsun buna razı olmazlar, haqsızlığa uğrayanların haqqını müdafiə edərlər. Qazanclarını halal yolla əldə etmələrinin vacibliyini bilirlər. Peyğəmbərimizin (səllallahu əleyhi və səlləm) "Ticarətdə doğruluqdan ayrılmayan şəxs qiyamət günündə Peyğəmbərlərlə birlikdə olacaqdır." (Tirmizi, Büyu, 4)  sözünü yadlarından çıxarmazlar. Zəngin-kasıb, güclü-zəif fərqindən asılı olmayaraq hamı ilə eyni cür davranırlar. Güclünün haqlı deyil, haqlının güclü olduğu həqiqətinə inanırlar. Sahib olduğu şeylərin Allahın onlara verdiyi əmanətlər olduğunu bilirlər. Kömək etdikləri insanın onlara borclu olduğunu əsla düşünməzlər.

*"Ey iman gətirənlər! Səbr və dua ilə (namazla Allahdan) kömək diləyin. Çünki Allah səbr edənlərlədir. (Onların dostudur)"*

(Bəqərə, 153)

# Ətraf Mühitə və Bütün İnsanlara Qarşı Vəzifələrinin Düşüncəsində Olan Bir Müsəlman…

*“Ey iman gətirənlər! Başqalarının evlərinə sahiblərindən icazə almadan və onlara salam vermədən girməyim. Bu, (ədəb-ərkan baxımından) sizin üçün daha yaxşıdır. Bəlkə, (Allahın bu əmrinin hikmətini) düşünüb anlayasınız.”*

(Nur, 27)

*“(Dalda) qeybət edib (üzdə) tənə vuran hər kəsin vay halına! O kimsə ki, mal yığıb onu dönə-dönə sayar (çoxaldar).”*

(Hüməzə surəsi, 1-2)

- ✓ Yalnız özü üçün yaşamadığını bilir, dünyadakı bütün insanlar üçün əlindən gələni edir.
- ✓ Dostluğa və yoldaşlığa əhəmiyyət verir. Yoldaşlarına vəfalıdır.
- ✓ Ona sirr verəndə o, bu sirri saxlayar. Başqalarının şəxsi həyatına hörmət göstərir.
- ✓ Heç kimin dalınca danışmaz. Pis zən etməz.
- ✓ Başqalarını lağa qoymaz. Qarşısındakınında özü kimi bir insan olduğu düşüncəsi ilə hərəkət edər.
- ✓ Hirsləndiyi zaman öfkəsinə nəzarət etməyi bilir, sonradan peşman olacağı bir işi etməməyə çalışır.
- ✓ Böyük-kiçik fərqi qoymadan hamıya sayğılı davranır.
- ✓ Zəkat, fitrə kimi maddi mükəlləfiyyətlərini yerinə yetirməklə qalmaz, təbəssümün belə bir köməkləşmə və bölüşmə olduğu şüurunu daşıyar.

- Həqiqi dayağın yalnız yaxşı işlərdə köməkləşmə olduğunu bilir. Yanlış iş edənlərə isə onları pislikdən çəkindirməyə çalışaraq kömək edir.
- Özündən kömək istəyən şəxsə, ***"Dilənçini də (qapdıan) qovma!"*** (Zuha, 10) ayəsi doğrultusundan heç bir şəkildə pis davranmaz.
- Verməklə özündən bir şeyin nöqsanlaşmayacağını bilir, sahib olduqlarını bölüşdükcə bərəkətlənəcəyinə inanır.
- Birinə kömək etmək istədkdə Rəbbinin ***"Sevdiyiniz şeylərdən*** (haqq yolunda) ***sərf etməyincə savaba çatmazsınız Şübhəsiz ki, Allah*** (Onun yolunda) ***xərclədiyiniz hər bir şeyi biləndir! "*** (Ali-İmran, 92) buyruğunu xatırlayar. Xoşlanmadığı və atmaq istədiyi əşyalarını deyil, gözəl olan və sevdiyi şeyləri verir.
- Köməyi gülər üzlə edər, başa qaxmaz.
- Köməyi göstəriş üçün etməz və sağ əlinin verdiyini sol əl bilməz.
- İdarə etdiyi və birlikdə çalışdığı insanlarla insaflı və mərhəmətli davranır.
- Heç kimə haqsızlıq etməmək üçün həssas davranır.
- Tərəfkeşlik etməz. Haqsız olan çox yaxını olsa belə, haqlı olanın tərəfini saxlayır.

*"Ey İman gətirənlər! Qarşılıqlı razılıqla edilən alış-veriş müstəsna olmaqla bir-birinizin mallarını haram yolla yeməyin və özünüzü öldürməyin! Həqiqətən, Allah sizə qarşı mərhəmətlidir! "*
(Nisa surəsi, 29)

*Şübhəsiz: "Rəbbimiz Allahdır!"- deyənlərin, sonra da (sözünün üstündə) möhkəm duranların (qiyamət günü) heç bir qorxusu yoxdur və onlar qəm-qüssə də görməyəcəklər! Belələri cənnətlikdirlər, onlar (dünyada) erdikləri (yaxşı) əməllərin əvəzi olaraq orada əbədi qalacaqlar!*
(əl-Əhqaf suresi, 13-14)

- ✓ Allahın ədalətli olduğunu bilir və ona güvənir.
- ✓ Heç kimi aldatmaz. Peyğəmbər Əfəndimiz (səlallahu əleyhi və səlləm) ***“Aldadan, yaxud zərər verən, yaxud da hiyləgərlik edən bizdən deyildir.”*** buyurmuşdur. (Kənzül-Ümmal, 7825).
- ✓ Verdiyi sözdə durur, əsla yalan danışmaz.
- ✓ Qonşusu ac ikən özü tox yatmaz.
- ✓ Xəstələri ziyarət edər.
- ✓ Yetimləri qoruyar və onlara nəzarət edər.



Dəyərləndirmə Sualları

1. Məsuliyyəti Hər kəsin bir başqasına yüklədiyi bir hadisə yaşadınızmı? Nə kimi problemlərlə üzləşdiniz?

2. Ətrafınızda “Mənə nə, başqaları fikirləşsin.” demədən fərdi və ictimai məsuliyyətlərini yerinə yetirən şəxslər varmı? Bu şəxslərin toplum həyatına müsbət təsirləri barəsində yoldaşlarınızla müzakirə edin.

## Hər Hansı Birini Dəvət

Hekayəmiz ***Hər Kəs, Birisi, Hər Hansı Biri*** və ***Heç Kim*** adlı dörd şəxs haqqındadır.

Edilməsi lazım olan bir iş vardı və ***Hər Kəs***, ***Birisi***nin bu işi edəcəyindən arxayın idi. Onsuz da işi ***Hər Hansı Biri*** də edə bilərdi, amma ***Heç Kim*** etmədi. ***Birisi*** buna çox hirsləndi, çünki iş ***Hər Kəs***in işi idi. ***Hər Kəs***, ***Hər Hansı Biri***nin bu işi edə biləcəyini fikirləşirdi. Amma ***Heç Kim***, ***Hər Kəs***in edə bilməyəcəyinin fərqində deyildi. Sonunda ***Hər Hansı Biri***nin edə biləcəyi bir işi, ***Heç Kim*** etmədiyi üçün ***Hər Kəs***, ***Birisi***ni günahlandırdı.

## Həzrət Ömərin Ədaləti

Həzrət Ömər Xəlifə olduğu dövrdə bir axşam işləyirdi. O əsnada bir qonağı gəldi və oturub söhbət etməyə başladı. Həzrət Ömər dərhal ayağa qalxdı və yanan şamı söndürüb başqa bir şam yandırdı. Qonaq maraqlı nəzərlə Həzrət Öməri seyr edirdi. Amma heç bir şey anlaya bilməmişdi. Dözə bilməyib soruşdu:

“O da şam, digəri də şam. İkisi də eyni şəkildə aydınlıq verir. Nəyə görə birini söndürüb o birini yandırdın?”

Həzrət Ömərin cavabı belə oldu:

“Söndürdüyüm şam, millətin pulu ilə alınmışdı. Xüsusi işlərimi görərkən, yoldaşlarımla söhbətləşərkən ondan istifadə etməyə haqqım yoxdur. Bunun üçün o şamı söndürdüm və öz pulumla aldığım şamı yandırdım.”

1. *Mətnə görə ədalətsizlik kimi adlandırılan davranış nədir?*
2. *Kiçik bir əhəmiyyət verməmənin ədalətsizliyə səbəb ola biləcəyi vəziyyətlər yaşadınızmı? Bir misal verin.*
3. *Mətni göz önündə canlandıraraq “ədalət”ə tərif verməyə çalışın.*



*Köməkləşmə insanlar arasındakı ictimai əlaqələrə necə təsir edir? Yoldaşlarınızla müzakirə edin.*

*Ətrafımızdakıları yardım sevər olmağa təşviqetmək üçün nə edə bilərik?. Yoldaşlarınızla müzakirə edin.*

*Yalan danışmamaq, gülərüzlü olmaq hər bir müsəlmanın ətrafına qarşı olan məsuliyyətlərindəndir. Siz də Müsəlmanların ətrafına qarşı məsuliyyətlərindən beş dənəsini yazın.*

*"Müsəlman, müsəlmanın qardaşıdır. Ona xainlik etməz, zərər yetirməz, onu kiçik tutmaz."*

(Buxari, Məzalim, 3)

*"Mömin, insanlarla ünsiyyət edən və insanların da onunla ünsiyyət edə bildiyi şəxsdir. Yaxınlıq qurmayan və özü ilə yaxınlıq qurula bilməyən insanda xeyr gəlməz."*

(Əhməd bin Hənbəl, 4/271)

***Peyğəmbər Əfəndimizin (səs) bizə öyrətdiklərindən:***

*Kim (müsəlman) qardaşının ehtiyacını ödəyərsə, Allah da onun ehtiyacını ödəyər.*

*Kim bir Müsəlmanı bir sıxıntıdan qurtararsa, Allah da onu Qiyamət gününün sıxıntısından qurtarır.*

*Kim bir müsəlmanı geyindirərsə, Allah da onu qiyamət günü giyindirər.*

(Əbu Davud, Ədəb, 46)

# *Hər kəs Kömək Etmə Gücünə Malikdir*

Məktəbin divarlarında və lövhələrdə boş yer qalmamışdı. Sosial həmrəylik və köməkləşmə dəstəsi keçən həftə qonşu şəhərdə baş verən zəlzələ fəlakətinə həssasiyyəti artırmaq üçün bütün məktəbi afişalarla bəzəmişdi. Şagirdlər bu bəlada evləri yıxılan, yaxınlarını itirən, xəsarət alan, ac və susuz qalan insanlara kömək etmək üçün çalışırdılar. Tez-tez “hər kəs kömək etmək gücünə sahibdir.”-şüarı eşidilirdi. Hüseyn bu sözün doğru olmadığını fikirləşirdi. Ona görə möhtac olanlara kömək edə bilmək üçün varlı olmaq lazımdır. Atası vəfat etdikdən sonra ailəsinin maddi vəziyyəti pozulan Hüseynin kömək kompaniyasına pul verəcək gücü yox idi.

Kompaniya üç gün davam etdi və toplanan əşyalar yük maşınlarına daşınmaq üçün hazırlanırdı. Hüseyn utanaraq əlindəki bağlama ilə yük maşınına yaxınlaşdı. Məktəb qapısında Osmanla qarşılaşdı. Osman, Hüseynin sinif yoldaşı idi. Onun da maddi vəziyyəti yaxşı deyildi. İşəmuzd süpürgəçiliyə gedən anası ilə birlikdə yaşayırdı. Yük maşınına əşyaları daşıyarkən xeyli yorulmuşdu. Osman, Hüseyni görəndə əlindəki bağlamanı soruşdu: “Zəlzələ bölgəsinə nə göndərirsən?” Hüseyn cavab verdi: “Uşaqlıq yorğanımı. Anam mən doğulanda tikdirmişdi. İşlətmək heç nəsib olmayıb. Onun xatirəsi olduğuna görə saxlayırdım. Zəlzələ bölgəsində çadırlarda qalan uşaqlar kim bilir nə qədər üşüyürlər, deyilmi Osman? Artıq bu yorğan ehtiyacı olan birini isidəcək. Əslində oraya böyük köməklər getməlidir, mənimki kimi əhəmiyyətsiz şeylər yox, elə deyilmi?”

Osman yoldaşına belə cavab verdi: “Bunun heç də əhəmiyyətsiz olduğunu düşünmürəm. Köməyin böyüyü-kiçiyi olmaz. Edilən hər şey yerini və əvəzini tapar. Mənim verəcək bir yorğanım belə yoxdur. Amma kömək edə bilməyəcəyimi düşünmədim. Elə düşünsəydim əşyaları bağlayan, yük maşınına daşıyan bir kəs əskik olacaqdı, bu səbəbdən də bəlkə də yük maşını yola daha gec çıxacaqdı. Mən, zəlzələ bölgəsinə öz əməyim və dualarımla kömək edirəm.”

## Aişə Nə Etməlidir?



Kolonkanın alovlanması nəticəsində Aişənin sinif yoldaşı Xalidənin əlləri və üzü yanmışdı. Xalidənin əməliyyatı üçün məktəbdə pul yığılırdı. Mütəxəssislərin rəyinə görə əgər dərhal əlinə və üzünə cərrahi əməliyyat edilməzsə yanıq izləri qala bilər. Aişə yeddi aydır kompüter almaq üçün pul yığırdı. Doğrusu, nə edəcəyini dəqiq bilmirdi. “Onsuz da ona kimsə kömək edər.”-deyə fikrə getdi. Çünki kompüter alması onun üçün çox vacibdir. Ancaq özü çaşbaş olmuşdu.

***Siz onun yerində olsaydınız belə bir halda nə edərdiniz?***

*Peyğəmbər Əfəndimiz (səllallahu əleyhi və səlləm) belə buyurur:*
*“Müsəlman, müsəlmanın qardaşıdır.*
*Ona zülm etməz, onu təhlükədə tək buraxmaz”*
(Müslim, Birr, 58)

### *Quranda Həzrət Loğman oğluna belə nəsihət edir:*

*“Oğlum, (dünyada gördüyün hər hansı yaxşı, yaxud pis iş) bir xardal dənəsi ağırlığında olsa da, bir qayanın içində, yaxud göylərdə və ya yerin təkində olsa da, Allah onu (qiyamət günü) ortaya gətirər. Həqiqətən, Allah lətifdir. (bütün incə, nazik işləri biləndir, lütfkardır), (hər şeydən) xəbərdardır!”* (Loğman, 16)



*Bu ayə ilə əlaqəli olaraq “Yaxşılıq et dənizə at, balıq bilməsə də Xaliq (Yaradan) bilər.” atalar sözümüzü yoldaşlarınızla müzakirə edin.*


الله جل جلاله
محمد عليه السلام
١٤٢٥
AŞAGI TARAF



Əlinizdəki bu kitab sahib olduğunuz gözəllikləri ortaya çıxarmaq məqsəsi ilə hazırlandı. Həcmi kiçik olsa da bilik, duyğu və davranışlarınıza müsbət yöndən təsir edəcəyinə inanırıq. Çünki bu kitabda; dinin əhəmiyyət verdiyi və öyrənilməsini istədiyi faydalı biliklərlə qarşılaşacaqsınız. Allahın adı ilə başlamağın verdiyi mənəvi ləzzəti, salamlaşmağın yaxınlaşdıran gücünü hiss edəcəksiniz. Söz və davranış bütünlüyü içində ən yaxşı modeli, ailə və cəmiyyət həyatı üçün təməl əxlaq prinsiplərini və bir qismini də öz ixtiyarınıza buraxdığımız mövzuları oxuyacaqsınız.

İnanırıq ki, oxuyarkən düşünəcək və duyacaq, Rəbbimizin istədiyi əməlləri sevərək yerinə yetirəcəksiniz. “Etmə” dediklərindən də çəkinəcəksiniz. Ümidimiz yaxşılıqlara sevinmək, pisliklərdən çəkinmək, qəlbimizin bir qarışqanı belə əzməyəcək qədər həssaslaşması və bütün bunları mənimsəməkdir. Seçərkən yaxşı olanları seçmək... Bunlar, bizim məsuliyyətimizdir və siz də məsuliyyət daşıyacaq yaşdasınız.

Sizə güvənir və dəyər veririk.

DİNİMİ ÖĞRENİYORUM
(Azerbaycan Türkçesi)

Türkiyə Respublikası Diyanət İşləri Başqanlığının hədiyyəsidir. Satmaq olmaz.

ISBN 975-19-3595-4
9 789751 935953